# QARABAĞ AZƏRBAYCANDIR!



"Azərbaycanın tarixi Zəfəri Türk dövlətləri üçün də yeni imkanlar yaradıb"

5

## Azərbaycan-Serbiya: yeni perspektivlərə yol açan strateji tərəfdaşlıq



2

SƏS

№ 235 (6676) 22 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

# Britaniya kəşfiyyatının rəhbəri İrəvanda nə axtarır?

*Dekabrın 15-də Böyük Britaniyanın Mİ-6 kəşfiyyatının rəisi Riçard Mur İrəvana səfər edib. "Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdə Cənubi Qafqazda baş verən proseslər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib", - Ermənistan hökumətinin mətbuat xidməti bildirib. Qeyd edək ki, bu, Britaniya kəşfiyyatının rəhbərinin regiona ilk səfəridir.*



15

## BMT

BMT-likdən çıxıb...



6

## Zəngəzur dəhlizi - Türk dünyasının yeni doğan ulduzu!



14



## Qürur dolu 10-cu gün

*Biz Birinci Vətən Müharibəsi ilə İkinci Vətən Müharibəsi arasındakı zaman kəsiyinin o başında deyil, bu başındayıq. Yəni 30 ilin əvvəlindəki torpaqları işğala məruz qalan, yurdundan zorla qovulan, qapıları bağlı qalan, məcburi qaçqınlıq, köçkünlük həyatı yaşayan, gözüyaşlı insanlar deyilik.*

## Yeni il hədiyyələri doğrudanmı təhlükəlidir?



16

## Uşaq evlərindən çıxmış gənclərin sonrakı taleyi necə olur?



10

# Azərbaycan-Serbiya: yeni perspektivlərə yol açan strateji tərəfdaşlıq

*İlham Əliyev: "Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq"*

***Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Serbiya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. Serbiya arasında əlaqələr qarşılıqlı etimad əsasında davam etdirilir. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib və strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlir.***



Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin ölkəmizə işgüzar səfəri bu əlaqələrin davamlığına əsaslanır. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji və digər sahələrdə yeni prespektivlərə yol açmışdır. "Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanmışdır. Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq. Biz beynəlxalq hüququn tərəfdarıyıq və əminik ki, ölkələr arasında münasibətlər ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənə bilər. Bu sahədə dünyada müşahidə olunan ikili standartların təzahürləri, əlbəttə ki, bizi çox narahat edir. Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır".





Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış edərkən dövlət başçımız bildirib.

## "ƏLAQƏLƏRİMİZİN DİNAMİKASI DOĞRUDAN DA ÇOX MÜSBƏTDİR"

Prezident Vuçiçin dəvəti ilə bir ay əvvəl Serbiyada rəsmi səfərdə olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Şadam ki, əziz dostum mənim dəvətimi qəbul edib və bir ay keçmədən Bakıya səfər edib. Bu onu göstərir ki, əlaqələrimizin dinamikası doğrudan da çox müsbətdir. Biz keçən ay Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq. Nəinki arzulayırıq və eyni zamanda, hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu gün bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun".

Ardı Səh. 3

# Azərbaycan-Serbiya: yeni perspektivlərə yol açan strateji tərəfdaşlıq

*İlham Əliyev: "Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq"*





Əvvəli-Səh-2

Cənab Prezident bildirib ki, əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsi artacaq, hələ ki, o, istənilən səviyyədə deyil: "Nəqliyyat-logistika sahəsində böyük potensial var. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün bizim müvafiq qurumlar fəal işləməlidir. Aidiyyəti qurumlar arasında təmaslar artıq yaranıbdır".

### ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNMƏSİNƏ YENİ İMKANLAR YARADILIR

Qeyd edək ki, 2013-cü ildə Azərbaycan və Serbiya arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə, 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı əhəmiyyət kəsb edir. Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr ildən-ilə genişlənir. İkitərəfli əlaqələrin daha da geniş miqyas alması üçün potensial böyükdür.

Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri çərçivəsində dövlət başçıları vacib məsələləri müzakirə edib və bir sıra sənədlər imzalanıb. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Sözsüz ki, rəsmi görüş və sənədlərin imzalanması əlaqələrin daha da genişlənməsinə yeni imkanlar açır. Belə ki, dövlət başçıları Birgə Bəyanat, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Memorandumu imzalayıblar. Bu sənədlərin imzalanması əməkdaşlığın yeni müstəviyə qalxması deməkdir. Qeyd edək ki, səfər çərçivəsində enerji sahəsində əməkdaşlığın aparılması, elektrik enerjisi sahəsində, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələlər və s. müzakirə olunub.

### "SERBİYA-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN GƏLƏCƏYİ İLƏ BAĞLI ANCAQ NİKBİN FİKİRDƏ OLMAQ OLAR"

Dövlət başçısının dünən mətbuata çıxışında energetika sektorunun əməkdaşlığımızın bir hissəsi olduğunu bildirib. Son vaxtlar bu sahənin daha böyük əhəmiyyət kəsb etdiyini bildirən dövlət başçısı qeyd edib ki, Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə: "Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır. Onu da bildirməliyəm ki, dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək. Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik".

Göründüyü kimi, Serbiya və Azərbaycan arasında ikitərəfli əlaqələr bütün sahələrdə dostluq və qarşılıqlı anlaşma üzərində qurulub: "Əminəm ki, biz gələn ili də bu ab-hava şəraitində keçirəcəyik. Çünki bu il ikitərəfli əlaqələrimiz üçün çox uğurlu olub. Həm qarşılıqlı iki səfər, eyni zamanda, bizim nümayəndə heyətlərinin üzvlərinin təmasları və bütövlükdə Serbiya-Azərbaycan əlaqələrinin gələcəyi ilə bağlı ancaq nikbin fikirdə olmaq olar" - deyə Azərbaycan Prezidenti bildirib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Birinci vitse-prezident Mehriban Əliyeva Xalq rəssamı Ömər Eldarovun yubileyi ilə əlaqədar paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovun yubileyi ilə əlaqədar paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Sizi 95 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram! Öz yaradıcılığınızla milli təsviri incəsənətin gözəl ənənələrini zənginləşdirdiyinizə görə çox sağ olun! Siz Azərbaycanın yüksək mükafatlarına layiq görülmüsünüz. Lakin düşünürəm ki, ən böyük mükafatınız xalqımızın Sizə olan böyük sevgi və hörmətidir. Uca Allah Sizi və doğmalarınızı qorusun!

Dərin hörmət və sevgilərlə, MEHRİBAN"



# MOK-un İcraiyyə Komitəsinin iclası olub



Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) İcraiyyə Komitəsinin (İK) iclası keçirilib. AZƏRTAC xəbər verir ki, qurumun vitse-prezidenti Çingiz Hüseynzadə İK-nin iclasının iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib. İcraiyyə Komitəsinin gündəliyindəki məsələlər 2022-ci ilin idman yekunları, 2023-cü ilin idman tədbirləri haqda fikir mübadiləsi aparıldıqdan sonra MOK-un 30 illik yubiley tədbirləri haqqında xüsusi təqdimatı iclas iştirakçılarının diqqətinə çatdırıb. Cari məsələlərin müzakirəsindən sonra dövlət tərəfindən verilmiş mükafatların təqdimatı keçirilib. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibətilə və idmanının inkişafında xidmətlərinə görə Zemfira Meftaheddinova, Rəfiqə Şabanova, Xəzər İsayev, Nazir Rəhimov Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, Murad Fərzəliyev və Mehman Kərimov "Tərəqqi" medalı ilə təltif olunublar. Nazim Hüseynov və Vaqif Əliyevə isə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib. İdmanının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan Ağacan Abiyev də təltifolunanlar sırasında idi.

# Buxarest Sazişi: yaşıl enerji sahəsində strateji tərəfdaşlıq

***Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Rumıniya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Münasibətlərin tarixi ötən əsrləri əhatə edir və bu münasibətlərin əsası mənbələrdə qeyd olunduğu kimi, hələ XV əsrdə qoyulub.***

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətlərarası ikitərəfli münasibətlərin coğrafiyası genişlənmiş və Rumıniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 11-də tanımışdır. 1995-ci ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rumıniyaya rəsmi səfər etmiş və Rumıniya Prezidenti İon İliyesku ilə görüşən Ulu Öndər Heydər Əliyev Rumıniya prezidentinin onu bu ölkəyə səfərə dəvət etməsini iki ölkə arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün çox mühüm addım kimi qiymətləndirmişdir. Prezident Heydər Əliyevin Rumıniyaya səfəri zamanı Azərbaycan və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında Bəyannamə, eləcə də elm, təhsil, mədəniyyət və idman, həmçinin iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişlər imzalanmışdır. 1996-cı ilin martında Rumıniya Prezidenti İon İliyesku Azərbaycana rəsmi səfərə gəlmiş və səfər çərçivəsində iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, hava əlaqələri, ticarət gəmiçiliyi, beynəlxalq avtomobil daşımaları haqqında və digər sahələrdə əməkdaşlıq haqqında sazişlər imzalanıb.

Qarşılıqlı əlaqələrin təzahürü olaraq 1997-ci ildə Rumıniyanın Azərbaycanda səfirliyi, 2001-ci ildə isə Şərqi Avropa dövlətlərində ilk dəfə olaraq Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır. 1998-ci il iyunun 29-da Rumıniya Prezidenti Emil Konstantinesku Heydər Əliyevin dəvətilə Azərbaycana rəsmi səfəri zamanı ”Azərbaycan Respublikası ilə Rumıniya Respublikası arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında” bəyannamə imzalanmışdır.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev bir çox dünya ölkələri ilə yanaşı, Rumıniya ilə də əlaqələri uğurla inkişaf etdirir. 2004-cü ildə İlham Əliyevin Rumıniyaya rəsmi səfəri və səfər çərçivəsində ”Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi” də daxil olmaqla müxtəlif sahələri əhatə edən 12 sənədin imzalanması münasibətlərin genişlənməsinə geniş imkanlar açdı. Beləliklə, qarşılıqlı səfər və görüşlər ölkələr arasında siyasi - iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etməsinə səbəb oldu. Prezident İlham Əliyev çıxışlarının birində ikitərəfli dostluq münasibətlərinin sürətlə inkişaf etdiyini, siyasi, iqtisadi, mədəni, enerji sahəsində ölkələrimizin yaxın tərəfdaş olduğunu və regional əməkdaşlığın uğurla həyata keçirildiyini bildirib.”Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə”, ”Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”, ”Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş” və digər sənədlər dövlətlərarası münasibətlərdə körpü rolu oynayıb.



*Prezident İlham Əliyev: "Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır"*

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri dövlətlərarası münasibətlərin inkişafına söykənir. Dekabrın 17-də Buxarestdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub. Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd edilib, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti diqqətə çəkilib. Hər iki ölkənin müvafiq qurumları arasında sıx əməkdaşlığın həyata keçirilməsinə önəm verilib.

Görüşdə Yunanıstan-Bolqarıstan İnterkonnektoru işə salındıqdan sonra Azərbaycan qazının qısa müddət ərzində Rumıniyaya nəql edilməsi barədə razılığa gəlindiyi bildirilib və gələn ilin yanvarında bu işə başlanılacağı qeyd olunub. Belə ki, Dövlət Neft Şirkəti və Romqaz 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzalayıblar. Həmçinin, SOCAR-ın Rumıniyada uzun illər uğurla fəaliyyət göstərdiyi vurğulanıb və bu fəaliyyətin genişləndirilməsi üçün yaxşı potensial mövcuddur. Söhbət əsnasında Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu ilə nəqliyyat-kommunikasiya imkanlarının, yükdaşımaların həcminin artırılmasının mümkünlüyü barədə də fikir mübadiləsi aparılıb. Xəzər dənizi hövzəsi ilə Qara dəniz hövzəsi ölkələri arasında iqtisadi əməkdaşlıq işinə töhfə verəcək və bu proseslər öz növbəsində Mərkəzi Asiya ilə Avropa arasında tranzit əlaqələrinin gücləndirilməsinə müsbət təsir göstərəcəkdir. Bu gün regionda böyük gücə malik olan Azərbaycan Avropanın enerji təhlükəsizliyində də xüsusi rol oynayır.Bunu qiymətləndirən digər Avropa ölkələri kimi Rumıniya da Azərbaycanı regionda əsas tərəfdaş ölkə hesab edir. Regional və beynəlxalq təşkilatlarda Azərbaycan və Rumıniya yaxından əməkdaşlıq edirlər.







### ”GƏLƏN İL AZƏRBAYCANDAN İXRAC EDİLƏCƏK TƏBİİ QAZIN ÜMUMİ HƏCMİ TƏXMİNƏN 24 MİLYARD KUBMETR OLACAQ”

Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya səfəri çərçivəsində Buxarestdə ”Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanması ölkələr arasında bir sıra mühüm sahələrdə uzunmüddətli əməkdaşlıq üçün təməl yaradır. Bu Azərbaycanın Mərkəzi Asiya ilə bağlılığını artıracaq. Bu Saziş Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracaq və regionlarımıza təmiz enerjiyə keçidə nail olmağa kömək edəcəkdir. Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti mühüm əhəmiyyətli bir layihədir. Sazişin imzalanması mərasimi ilə bağlı plenar iclasda Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bu sənədin yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacağını bildirib. Eyni zamanda, bunun enerji dəhlizinin yaradılması istiqamətində atılan mühüm addım kimi qiymətləndirib. ”Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi”, - deyə Prezident diqqətə çatdırıb.

### ”MƏQSƏDLƏRİMİZƏ NAİL OLMAQ ÜÇÜN BİZ SƏMƏRƏLİ SURƏTDƏ ÇALIŞMALIYIQ”

Müasir günümüzdə Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. ”Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var” - deyən dövlət başçısı onu da qeyd edib ki, bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq:”Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq... Məqsədlərimizə nail olmaq üçün biz səmərəli surətdə çalışmalıyıq. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidirlər”.

Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş ölkələrin yaşıl enerji sahəsində sıx əməkdaşlığın təzahürüdür. Əlbəttə ki, Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında imzalanan Saziş ölkəmizin beynəlxalq güc kimi önəmini daha da artırır. Sazişin imzalanması ilə Azərbaycan qeyd olunan dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayacaqdır. Sözü gedən Sənədlə Azərbaycanın yaşıl enerjisi Qara dənizin dibi ilə sualtı elektrik kabeli vasitəsilə Avropaya nəql olunacaq. Rumıniya, Gürcüstan, Azərbaycan və Macarıstanın iştirakı ilə Qara dənizdə sualtı enerji kabelinin yaradılması layihəsi bütün regionun enerji təhlükəsizliyini gücləndirəcək. Təbii ki, ”Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” dünyada yaşanan enerji böhranın qarşısını almaq istiqamətində atılan növbəti vacib addımlardandır.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycanın tarixi Zəfəri Türk dövlətləri üçün də yeni imkanlar yaradıb"

*YAP Sədrinin müavini ilə Türk Demokratik Partiyasının sədri arasında görüş keçirilib*



***Xəbər verildiyi kimi, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Türk Demokratik Partiyasının dəvəti ilə Şimali Makedoniya Respublikasına səfər edib.***

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya parlamentinin deputatı və Şimali Makedoniya - Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Beycan İlyas arasında görüş keçirilib.

Şimali Makedoniya Türk Demokratik Partiyasının Mərkəzi Qərargahında baş tutan görüşdə Beycan İlyas qarşılıqlı səfərlərin istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından önəmli olduğunu vurğulayıb. ”Bu ilin may ayında Yeni Azərbaycan Partiyasının dəvəti ilə dost, qardaş Azərbaycana səfərimiz çərçivəsində səmərəli görüşlər keçirdik və qarşılıqlı faydalı əməkdaşlığın möhkəm əsaslarını yaratdıq”, - deyən Beycan İlyas YAP ilə Şimali Makedoniya Türk Demokratik Partiyası arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin yerinə yetirilməsinin ikitərəfli əlaqələrin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirib. Partiya sədri cari ilin noyabr ayında Bakıda Yeni Azərbaycan Partiyasının 30-cu ildönümü ilə əlaqədar keçirilən tədbirdə, eyni zamanda, ICAPP-ın xüsusi konfransında iştirakını məmnunluqla xatırladıb, Türk Demokratik Partiyasının YAP ilə əlaqələrin gücləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyasının əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin Azərbaycan-Şimali Makedoniya münasibətlərinə mühüm töhfə olduğunu vurğulayıb. O qeyd edib ki, 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan, işğal faktını aradan qaldıraraq ərazi bütövlüyünü bərpa edən Azərbaycan yeni geostrateji reallıqlar yaradıb və yeni mərhələdə dost, tərəfdaş ölkələrlə münasibətlərin inkişafı üçün ardıcıl addımlar atır. Azərbaycanın tarixi Zəfəri Türk dövlətləri üçün də yeni imkanlar və perspektivlər yaradıb. Yeni reallıqlar fonunda Türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüsləri olduqca önəmlidir. Bu kontekstdə Türk dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də vacibdir. Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyası bu reallıqları nəzərə alaraq dostluğa və qardaşlığa əsaslanan münasibətlərin inkişafı istiqamətində ardıcıl addımlar atırlar. ”2022-ci il mayın 10-da Yeni Azərbaycan Partiyası və Şimali Makedoniya Türk Demokratik Partiyası arasında imzalanmış Əməkdaşlıq Memorandumu çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və prioritetlərini müəyyənləşdirən çox önəmli sənəddir. Qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması və bir sıra digər addımlar isə partiyalararası münasibətlərə dinamizm gətirir”, - deyən YAP Sədrinin müavini tərəflərin siyasi iradələri əsasında Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyasının birlikdə mühüm nailiyyətlərə imza atacaqlarına inamını ifadə edib.





Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli daxildir.

# Aleksandar Vuçiçin Bakıya səfəri Serbiya mətbuatının diqqət mərkəzindədir

Serbiya KİV-i Prezident Aleksandar Vuçiçin dekabrın 21-də Azərbaycana işgüzar səfərinə geniş yer ayırıb. Belə ki, ölkənin əsas informasiya agentlikləri və xəbər portallarında dərc olunan yazılarda Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycan Prezidenti İlham Əliyev ilə təkbətək görüş keçirdiyi, dövlət başçılarının mətbuata bəyanatlarla çıxış etdikləri bildirilir.


KLUB ČITALACA PODCAST PRODAVNICA NEWSLETTER

Danas

Najnovije Vesti Kolumne Dijalog Svet Kultura Sport Na lokalu City Magazine Život BBC

POLITIKA

Vučić sa Alijevim o struji i gasu za Srbiju iz Azerbejdžana

FoNet danas 13:25

NAJNOVIJE

Politika - danas 13:25 Vučić sa Alijevim o struji i gasu za Srbiju iz Azerbejdžana

Politika - danas 13:18 Rašić: U 2022. godini na Kosovu nije izgrađena nijedna kuća za povratnike

Svet - danas 13:16 Putin otvorio novo nalazište prirodnog gasa u Sibiru: Rusija želi da poveća izvoz u Kinu zbog tenzija sa Zapadom

KOLUMNE

Nemanja Rujević U moje vreme

Marko Vidojković Maradonin novi trofej

Nenad Kulačin Vučić, prvak sveta

Aleksandar Milošević Elektro-drama u tri čina: Svi vole nezavisne medije, sve dok ne počnu da pišu o njima

Ime autora poznato redakciji Nek se ponovi


Vučić sa Alijevim: Potrebno nam je – ali ne kao Evropi. Možemo i bez toga da preživimo FOTO

Predsednik Srbije Aleksandar Vučić sastao se sa predsednikom Azerbejdžana Ilhamom Alijevim u Bakuu.

IZVOR: B92.NET | SREDA, 21.12.2022. | 10:45 -> 11:30

Foto: Instagram/buducnostsrbijeav

"Razgovarali smo o svim oblicima saradnje. Naše prijateljstvo je čvrsto i iskreno i ne postoji način da neko okrene Azerbejdžan protiv Srbije i obrnuto. Nema tog pristiska i mogućnosti da neko to uradi. Zahvalan sam Alijevu što razume naše teškoće sa kojima se suočavamo", rekao je Vučić.

Qeyd olunur ki, strateji tərəfdaş olan Serbiya və Azərbaycan hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib.

Səfər çərçivəsində Azərbaycanın elektrik enerjisinin gələn ildən Serbiyaya ixracı, eləcə də Serbiyanın Azərbaycan qazını əldə etməsi yolları barədə müzakirələrin aparıldığı vurğulanır.

# Zakir Həsənov: “Silahlı qüvvələrimiz arasında əməkdaşlıq təcrübə mübadiləsi üçün gözəl imkanlar yaradır”




***Azərbaycan, Türkiyə və Gürcüstan arasında müdafiə sahəsindəki əməkdaşlıq sürətlə inkişaf edir. Xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətlərinin üçtərəfli əlaqələrimizin dinamik inkişafında əhəmiyyətli rolu var. Beynəlxalq hüquqa və ərazi bütövlüyünə olan hörmət üçtərəfli əməkdaşlığımızın təmin olunmasına təsir göstərən ən mühüm amillərdəndir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə milli müdafiə naziri Hulusi Akar və Gürcüstan müdafiə naziri Cuanşer Burçuladze ilə birgə keçirdikləri brifinqdə ifadə edib.***

Azərbaycanın Türkiyə və Gürcüstanla hərbi əməkdaşlıq sahəsində üçtərəfli əlaqələrin genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdıran nazir Zakir Həsənov deyib: ”Silahlı qüvvələrimiz arasında əməkdaşlıq və döyüş səviyyəsinin artırılması təcrübə mübadiləsinin aparılması üçün gözəl imkanlar yaradır”.

Üçtərəfli hərbi əməkdaşlığın inkişafını Cənubi Qafqazda sülh və sabitliyin qorunması üçün mühüm amil kimi dəyərləndirən general-polkovnik Zakir Həsənov 44 günlük Vətən müharibəsində sərgilədiyi ədalətli və qətiyyətli mövqeyə görə Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti adından Türkiyə tərəfinə bir daha dərin minnətdarlığını bildirib.

# BMT BMT-likdən çıxıb...





## *Yaxud, niyə azərbaycanlılar beynəlxalq aləm tərəfindən Azərbaycanın suveren əraziləri kimi tanınan torpaqlara səfər etmək hüququna malik deyillər?*

Tövsiyə edirik... Çağırırıq... Səsləyirik... Qeyd şərtsiz və s... Ötən gün Ermənistanın böyük bacısı Fransanın dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasında Şuşa-Laçın-Xankəndi yolu ilə bağlı dinləmələr keçirildi. Nəticədə Fransadan, ABŞ-dan, Böyük Britaniyadan, Braziliyadan, Keniyadan, Meksikadan, Norveçdən, İrlandiyadan, Hindistandan olan nümayəndələr "Laçın yolunun dərhal açılması" ilə bağlı çağırış etdilər. BƏƏ və digər ölkələr isə Ermənistanla Azərbaycan arasında artan gərginlikdən narahatlıq keçirdiklərini bildirərək Bakı və İrəvan arasındakı fikir ayrılıqlarını diplomatik vasitələrlə həll etməyə dəvət ediblər.

### Bu, gerçəyə qalanda ikili standartlar da deyil, riyakarlıq və yumşaq ifadə etsək siyasi bədnamlıq və qəsddir!

Bütün bunlar öz yerində və əslində, reallığa qalanda hər kəs nəyin necə olduğunu çox yaxşı bilir. Sadəcə, belə bir məqamda düşündürücü sual yaranır - məgər bu həmin BMT TŞ deyilmi ki, ötən gün ölkəmizə qarşı çağırışlar, tələblər irəli sürülərkən Azərbaycanın torpaqları 30 il işğala məruz qaldığı bir zamanlarda Ermənistanın işğalçılıq siyasətinə son qoyulması məqsədi ilə məhz həmin toplantı salonunda (!) məlum və yerinə yetirilməyən dörd qətnamə qəbul olunmuşdu?!

Yaxud, ötən gün "ağıllı tövsiyələr" verən, bu da azmış kimi "qeyd-şərtsiz tələblər" irəli sürən həmin ölkələr Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımırlarmı? Və ya tanıyırlarsa nəyə görə Azərbaycanın özünün işğaldan azad etdiyi ərazilərindəki özbaşınalıqlara, işğal faktının davamına dolayısı ilə dəstək göstərirlər? Bu, gerçəyə qalanda ikili standartlar da deyil, riyakarlıq və yumşaq ifadə etsək siyasi bədnamlıq və qəsddir!

### Təkcə bu fakta diqqət yetirək:

44 günlük müharibədən sonra, yəni Azərbaycanın öz ərazilərini işğaldan azad etməsinin ardınca qəbul edilən üçtərəfli bəyanatdakı bəlli bəndlərə birtərəfli olaraq Ermənistan tərəfindən riayət olunmur. Hətta müharibə başa çatsa belə erməni silahlıları tərəfindən ərazilərimizdə minalar basdırılır, insanlar həlak olur, ekologiyamız - flora və faunamız məhv edilir, tarixi abidələrimiz ciddi təhlükələr altında qalır. Bu da son deyil. Cəmi 10 gündür ekoloqlarımızın faydalı qazıntı yataqlarında monitorinqin keçirilməsini tələb etmələri və bu məqsədlə Laçın yolunda aksiya keçirmələri "əzabkeş" və "məzlum" erməni hay-şivəni ilə müşahidə olunur ki, guya Xankəndi ilə çöl dünyanın əlaqəsi "tamamilə kəsilib" və oradakı insanlar "humanitar fəlakət" qarşısında qalaraq "ölürlər" (???!!!)

Halbuki, kifayət qədər video və fotofaktlar erməni hay-şivəninin reallığı əks etdirmədiyini isbatlayır. Bütün humanitar yüklər - qida, ərzaq, dərman və s. Laçın yolundan rahat şəkildə keçir və eyni zamanda, Xankəndi-Gorus-İrəvan istiqamətində də təcili tibbi yardım maşınlarının keçidinə imkan və şəraitlər yaradılır. Beləliklə, bu gün BMT-nin divarları arasında "narahat olanlar" həmin faktları öz gözləri ilə də gəlib müşahidə edə bilərlər, əlbəttə ki, bu qədər narahatdırlarsa. Hər halda həmin ölkələrin Azərbaycanda səfirlikləri mövcuddur...




### BMT-dəki "başbilənlər" tərəfindən 30 il (!!!) əvvəl Xankəndidən çıxan və öz evinə gedə bilməyən azərbaycanlıların dərdinə niyə şərik çıxılmır?

(Fotoda: 30 ildir öz evinə gedə bilməyən azərbaycanlı Xankəndi sakini)

Biz üç onilliklər boyu torpaqlarından, dədə-baba yurdlarınan ayrı qalmış və beynəlxalq aləm tərəfindən lazımi qiymət almamış azərbaycanlıların itirilmiş hüquqlarının bərpasını qoyuruq bir tərəfə. Amma bununla yanaşı, daha bir sual veririk - BMT-dəki "başbilənlər" tərəfindən 30 il (!!!) əvvəl Xankəndidən çıxan və öz evinə gedə bilməyən azərbaycanlıların dərdinə niyə şərik çıxılmır? Halbuki, Azərbaycana tərəf şər atma siyasətini tətbiq etməklə İrəvan hansı üstünlük əldə edəcəyini düşünür? Yaxud, BMT-də 30 ildir Xankəndiyə gedə bilməyən azərbaycanlılarla 10 gündür oraya gedə bilməyən ermənilər arasındakı fərqi dərk edən yoxdurmu? Axı Azərbaycan dəfələrlə bəyan edib ki, İrəvanda qalan uşaqlar rahat şəkildə Laçın yolu ilə öz evlərinə geri dönə bilərlər və onlara heç bir maneələr yaradılmayacaq. Çünki Ermənistandan fərqli olaraq Azərbaycan daim humanizm prinsiplərinə əsaslı şəkildə riayət edir və insanlıq amilini öndə tutur!

### Onlar erməni separatçılığına və terrorçuluğuna rəsmi qaydada dəstək göstərirlər, əl çalır və alqışlayırlar!

Ona görə də Fransadan, ABŞ-dan, Böyük Britaniyadan, Braziliyadan, Keniyadan, Meksikadan, Norveçdən, İrlandiyadan, Hindistandan və s. olan BMT nümayəndələri Azərbaycana tərəf "Laçın yolunun dərhal açılması" ilə bağlı çağırış edərkən, tələblər irəli sürərkən gözlərini daha geniş açmaqla bu həqiqəti də dərk etsinlər. Yox, əgər həqiqəti etmirlərsə, ya da etmək istəmirlərsə bunu açıq ifadə etsinlər ki, onlar erməni separatçılığına və terrorçuluğuna rəsmi qaydada dəstək göstərirlər, əl çalır və alqışlayırlar!

Bu, eyni zamanda daha bir amili önə çıxarır : məlum "tələbkar" BMT-çilərin qeyd edilən çağırışları azərbaycanlıların Azərbaycanın beynəlxalq aləm tərəfindən tanınan istənilən ərazilərinə səfər etmək hüquqlarının olmadığını göstərir (?!) Məgər belə çıxmırmı..?!

Separatçılar Ermənistanın vasitəsi ilə beynəlxalq aləm tərəfindən Azərbaycanın ərazisi kimi tanınan torpaqlarda talançılıqla, terrorçuluqla, təbiətə ziyan vurmaqla, minalar basdırmaqla, insanlarımızı öldürməklə fəaliyyətlərini davam etdirəcəklər, Azərbaycan isə buna qarşı çıxanda BMT TŞ kürsülərində oturan "ağıllılar" çağırış edəcəklər ki, Azərbaycanın öz ərazilərində baş verən cinayətlərə qarşı çıxmasına hüququ-filanı yoxdur (???!!!) BU, GERÇƏK BİR ABSURDDUR! Ya da BMT artıq BMT-likdən çıxıb. Belədirsə, onda bir zəhmət, həmin çağırış sənədlərini BMT-nin ayaqyolunda istifadə etsinlər. Deyilənə görə, dünyada möhkəm kağız qıtlığı yaşanır...

***Rövşən RƏSULOV***

***P.S.*** *BMT-dəki "başbilənlər" onu da unutmasınlar ki, bu gün onlar vaxtilə qəbul etdikləri dörd qətnaməni icra etməyən işğalçı Ermənistanın başına sığal çəkirlər...*






# “Dünya ictimaiyyətinə aksiyanın keçirilməsinin əsl səbəbini çatdırmalıyıq”

*“Vətən Müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin başçılığı altında Azərbaycan Ordusu erməni faşizmi üzərində qələbə qazanaraq tarix yazdı.*

Bu günlərdə də Azərbaycan xalqı qalib, mübariz, qürurlu bir xalq olduğunu bütün dünyaya sübut edir. Vətəndaş cəmiyyətinin nümayəndələri, ekoloji fəallar mərdlik, dözümlülük nümayiş etdirərək neçə gündür ki, gecə gündüz şaxtalı havada torpaqlarımızın yeraltı, yerüstü sərvətlərinin erməni separatçıları tərəfindən qanunsuz talanması, istismarına qarşı dinc aksiya keçirirlər. Bu həm də Azərbaycanın suverenliyinin bərpa olunması istiqamətində həyata keçirilən dinc aksiyadır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.

Onun sözlərinə görə, artıq Ruben Vardanyanın Qarabağa göndərilməsinin məqsədi aydın oldu: ”Vardanyan Qarabağda təxribat törətmək, orada yaşayan ermənisilli Azərbaycan vətəndaşlarını qorxu və təlaş içərisində saxlamaq, eləcə də ərazilərimizdəki təbii yataqlarımızı vəhşicəsinə istismar etmək və talamağa, öz havadarları ilə milyardlar qazanmaq məqsədilə göndərilib. Bu günə qədər Rusiya sülhməramlı kontingentinin komandanı azərbaycanlı etirazçıların qarşısına çıxıb qaldırdıqları tələblərin yerinə yetirilməməsinə aydınlıq gətirilməməsi onu deməyə əsas verir ki, separatçıların bu qanunsuz hərəkətlərində Volkov da iştirak edir, öz sülhməramlı missiyasını yerinə yetirmək əvəzinə ermənilərlə birlikdə qeyri qanuni bizneslə məşğuldur, deməli cinayət törədir. Ermənilərin məqsədi aydındır. Onlar başa düşürlər ki, Azərbaycan dövləti yaxın vaxtlarda Rusiya sülhməramlılarının nəzarətində olduğu ərazilərdə də öz suverenliyini bərpa edəcək. O vaxta qədər isə ermənilər talançılıq, qarətlə məşğul olurlar”.

Deputat sözlərinə belə davam edib: ”Volkovun daha bir qeyri qanuni hərəkəti Laçın dəhlizi vasitəsilə Ermənistandan Qarabağa silahların göndərilməsinə göz yumması, eləcə də Qarabağda yerləşdirilən separatçı silahlı dəstələrin oradan çıxarılmasını təmin etməməsidir. Bütün bu faktlar barədə Azərbaycan tərəfində kifayət qədər sübutlar da var.

Bu gün Ermənistanın bütün dünyaya guya Laçın yolunun azərbaycanlılar tərəfindən bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə keçirməsi barədə iddiaları qərəz və böhtandır. Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya sülhməramlıları tərəfindən bağlanıb.

Döyüş meydanında diplomatik sahədə qazandığımız Şanlı qələbədən sonra vətəndaş cəmiyyətinin nümayəndələrinin təbii yataqlarımızın istismar olunmasına qarşı, Azərbaycanın suverenliyinin bərpa edilməsi uğrunda dinc sivil aksiyası da qələbə ilə başa çatacaq. Bu gün biz bütün vasitələrlə dünya ictimaiyyətinə Laçın yolunda aksiyanın keçirilməsinin əsl səbəbini çatdırmalıyıq”.

***Ayşən Vəli***

## Azərbaycan Ermənistanla bağlı AİHM-ə müraciət edib

**Azərbaycan hökuməti işğaldan azad edilmiş torpaqlarda azərbaycanlılara qarşı insan haqlarının kobud şəkildə pozulduğuna görə Ermənistana qarşı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edib. SİA-nın verdiyi məlumata görə, Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) 2022-ci ilin may-avqust aylarında erməni silahlı birləşmələri qarşısında yüzlərlə evin və digər yaşayış yerlərinin qəsdən və qəsdən dağıdıldığına dair bir sıra sübutlar təqdim edilib. Laçın şəhəri və yaxınlıqdakı 2 kənd boşaldılıb.**



Bəyanatda qeyd olunub ki, Ermənistan hökuməti sözügedən rayonlara nəzarət etdikləri dövrdə bu kütləvi dağıntının qarşısını almaq üçün heç bir addım atmayıb. ”Azərbaycan insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyanın ödənilməsini tələb edir”.

Ermənistan hakimiyyətinin ”yandırılmış torpaq siyasəti”ndə fəal iştirak etdiyi bildirilən bəyanatda aşağıdakı ifadələrdən istifadə olunub: ”Ermənistan hökuməti Laçına gedən yolda sistematik insan haqları pozuntularına yol verib. Yeni aşkar edilmiş sübutlar göstərir ki, Ermənistan ordusu 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyannaməyə əsasən boşaldılması zəruri olan ərazilərə minalar basdırıb, lakin eyni zamanda bunu davam etdirir. yaşayış məskənlərinə mina tələləri yerləşdirmək.2021-ci ildə Ermənistanda istehsal olunub və buraya Laçın yolu ilə Azərbaycana gətirilən minalar da daxildir. Ermənistanın 30 il əvvəl qeyri-qanuni işğalı nəticəsində qaçqınlar öz əvvəlki evlərinə və torpaqlarına qayıtmağa məcbur olub.

Ermənistan hökumətinin gördüyü işlər azərbaycanlıların şəxsi və ailə həyatı, sərbəst hərəkət, mülkündən dinc istifadə hüquqlarının pozulmasıdır. Azərbaycan insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyanın ödənilməsini, ərazinin bərpasını, təmir və digər xərcləri tələb edir.

Bəyanatda vurğulanıb ki, Azərbaycan beynəlxalq insan haqlarının davamlı və məqsədyönlü şəkildə pozulmasına görə Ermənistan hökumətinin mühakimə olunması istiqamətində səylərini davam etdirəcək.

***Ziya Hikmət oğlu***

# İsrail Təhlükəsizlik Akademiyasının nümayəndəsi Səs Media Qrupun qonağı olub

***Dünən Səs Media Qrupun redaksiyasında İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyinin direktoru Mirsamir Məmmədovla SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev və icraçı direktor Vəli Vəliyev arasında görüş təşkil edilib. SİA xəbər verir ki, görüşdə iki qurum arasında mövcud əlaqələr və perspektivlər müzakirə olunub.***



Qeyd edək ki, İsrail Təhlükəsizlik Akademiyası NATO və BMT-nin səlahiyyətli xidmət təminatçısıdır və buna görə də, Avropa Birliyi və dünya ictimaiyyəti tərəfindən tanınan diplom, sertifikat və Europass vermək üçün akkreditə olunur. Akademiya Yaxın Şərqdə, İsraildə yerləşən xüsusi təhlükəsizlik, hərbi müdafiə, mühafizə, beynəlxalq terrorizmlə və beynəlxalq cinayətkarlıqla mübarizəyə dair xüsusi peşələr üzrə və xüsusən hərbi təyinatlı xüsusi operativ taktiki təlim-tədris mərkəzidir. Bu Akademiya çətinliyindən asılı olmayaraq geniş spektrli xüsusi taktiki təlimlərin həyata keçirilməsində ixtisaslaşan təhsil qurumudur.

Bundan əlavə, Bolqarıstan və Polşadakı filiallar Avropa qitəsində yerləşən müştərilərə xidmət göstərir. Qurum həm dövlət sifarişləri ilə (bu, ilk növbədə, xüsusi təyinatlı hərbi qulluqçuların hazırlanmasına aiddir), həm də fərdi şəxslərlə əməkdaşlıq edir.

ISA əməkdaşları tapşırıqların yerinə yetirilməsinin zəruri olduğu regionun qanunlarını nəzərə alaraq beynəlxalq hüquq sahəsində çalışırlar.

Qurumun əsas xüsusiyyəti peşəkarlardan ibarət sıx bağlı komandadır. İşçilər dünyanın aparıcı xüsusi təyinatlılarının (İsrail Müdafiə Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri, İsrail Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri, İsrail Polisinin Xüsusi Təyinatlı Qüvvələri) veteranlarıdır. İSA əməkdaşlarının hər biri həm qrup şəklində inamla işləyir, həm də kritik vəziyyətdə təşəbbüsü ələ almağı, düzgün taktiki qərar qəbul etməyi və tapşırığı müstəqil şəkildə yerinə yetirməyi bacarır.

İsrail Təhlükəsizlik Akademiyasının fəaliyyətlərinə polis zabitləri və əməkdaşlarına, hərbçilərə, mühafizə əməkdaşlarına, təhlükəsizlik əməkdaşlarına və həmçinin həbsxana işçilərinə Cinayətkarlardan qorunma, cinayətkarın zərərsizləşdirilməsi, anti-terror, hərbi və mülki müdafiə taktiki təlimlərinin öyrədilməsi daxildir. İsrail Təhlükəsizlik Akademiyasında peşəkar təhlükəsizlik və anti-terror mütəxəssisləri beynəlxalq cinayətkarlığa və beynəlxalq terrorizmə qarşı təhlükəsizlik, müdafiə və qorunma sahələrini əhatə edən bilik və bacarıqları və həmçinin xüsusən terrorla mübarizə təlimlərini öyrədir. Azərvaycan Respublikasındakı Nümayəndəliyin və Nümayəndəliyin rəsmi şöbələrinin fəaliyyətləri məhz bundan ibarətdir.

İsrail Təhlükəsizlik Akademiyası tərəfindən Azərbaycan Respublikasındakı fəaliyyətlərində göstərdiyi səmimi informasiya dəstəyinə, tolerantlığın təbliğinə, Azərbaycan və İsrail əlaqələrinin inkişafına verdiyi dəstəklərə görə Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev və qurumun icraçı direktoru Vəli Vəliyev ”İsrail Təhlükəsizlik Akademiyasının Fəxri Dostu və Peşəkar Mətbuatçı” ali fəxri adına layiq görülərək təltif ediliblər. Sonda görüş iştirakçıları birgə xatirə fotosu çəkdiriblər.

# İran nə istəyir, sülh, yoxsa?...



***İran çox çirki oyunun içindədir. Daxili təlatümlərdən yaxa qurtarmağın çətin olduğunu hiss edir və çıxış yolu kimi qonşuları ilə münasibətləri gərginləşdirir. Daxili auditoriyaya bütün baş verən neqativ halların, daxili çaxnaşmaların, sosial problemlərin, ölkənin tənəzzülə doğru iri addımlarla irəliləməsinin günahının da kənarda olduğunu söyləməkdən çəkinmir. Əxlaq polisinin barbarlığı səbəbindən onsuz da qığılcıma bənd olan daxili vəziyyətin alovlanmasının səbəbini də Tehran-molla rejimi qonşu ölkələrdə axtarır.***





RAKURS

İranda mollaların hakimiyyətə gəlişindən sonra bu ölkənin düşdüyü bataqlıq ona dost əlini uzatmaq istəyənləri də özü ilə içəriyə çəkir. Çünki molla rejiminin ideoloji istiqaməti sivilizasiya, normal cəmiyyətlə ziddiyyət təşkil edir. Bu səbəbdəndir ki, kimsə onunla dost olmaq belə istəmir. İran adlanan fars-molla rejimi ilə qonşu olan dövlətlərə diqqət edin və bir anlığa həmin ölkələrin arasında İranla səmimi dostluq etmək istəyənləri göstərin. Bəli, tərəddüd edəcəksiniz, çünki belə bir ölkə yoxdur. İranın şərq qonşuları Pakistan və Əfqanıstandır, hər ikisi ilə dini baxışlardakı fərqlilik səbəbindən münasibətlər heç düzələnə oxşamır. Türkmənistanla münasibətlər isə donmuş vəziyyətdədir. İranın cənub-qərbində körfəz ölkələridir - Oman, Birləşmiş Ərəb Əmirliyi, Bəhreyn, Qətər, Küveyt və Səudiyyə Ərəbistanı. Adıçıkilən ərəb ölkələrindən başqa şərq qonşusu İraqla da İranın münasibətləri molla rejiminin hakimiyyətə gəlişindən bəri düşmənçiliyə doğru meyllənməkdədir. Türkiyə ilə münasibətlər də sünni-şiə ayrımçılığı səbəbindən qeyri-normaldır. Son hadisələrdən sonra isə Tehranla Ankaranın münasibətləri düşmənçilik həddinə yaxınlaşır. Tehran rejiminin şimal qonşusu Azərbaycanla münasibətləri də xoş deyil, hətta bu münasibətlərdə də asilik axtarmağa dəyər. Hətta bu yaxınlarda İranın daxilində başlanmış çaxnaşmalarla eyni vaxtda keçirilən hərbi təlimlərdə Azərbaycana qarşı əzələ nümayişinin də şahidi olduq.

## Türk düşmənçiliyinin tarixi

Əslində Tehran-molla rejimi ilə Azərbaycanın gizli düşmənçiliyi ölkəmizin müstəqillik elan etməsindən sonra başlayıb. Əlbəttə, İran adlanan dövlətin Türk dünyasına olan nifrətinin, kininin, düşmənçiliyinin tarixi uzun illərə gedib çıxır. Türk imperiyaları - Səlcuqlar, Afşarlar, Səfəvilər, Qacarların dövründə də zəif olmalarına baxmayaraq farslar xristian ölkələrlə gizli sövdələşməyə gedərək, xüsusən də səlib yürüşünə çıxmış avropalılarla əlbir olaraq onlara bələdçilik etmişlər. Zaman keçdikcə İranda rejimlər dəyişdikcə nə türk düşmənçiliyi, nə də xristian dünyasına xidmət bitməmişdir. Üzdə "kafirlər"lə mübarizənin ideoloji istiqamət olduğu deyilsə də, fars rejiminin əsas hədəfi müsəlman dünyası olmuşdur və bu gün də belədir. Sadaladığımız ölkələr arasında bir xristian ölkəsi də var - Ermənistan. 30 il Azərbaycanın 20 faiz torpaqlarını işğal edən, mədəni, dini abidələrini dağıdan, məscidlərə donuz bağlayan, bir milyondan artıq Azərbaycan türkünü, müsəlmanı yaşamaq hüququndan məhrum edən Ermənistanla İranın molla rejimini nə birləşdirə bilərdi. Əlbəttə, türk-müsəlman düşmənçiliyi.

44 günlük müharibə də çox gizlinlərə aydınlıq gətirdi, molla rejiminin niyyətini ortaya qoydu, İranın iç üzü açıldı, türkün düşməni, erməni-xristian sevdalısı olduğu üzə çıxdı. Molla rejiminin ilk xəyanəti Vətən müharibəsinin gedişində Xudafərin körpüsü yaxınlığında özünü göstərdi. 30 il işğal müddətində separatçılarla əlbir olaraq Azərbaycan torpaqlarını istismar edən, ərazilərimizdən öz dədəsinin mülkiyyəti kimi yararlanan Tehran mollalarına xidmət edən İnqilab Keşikçiləri Korpusunun - SEPAH-ın əsgərləri hücum əməliyyatlarını genişləndirən Azərbaycan silahlı qüvvələrinin yoluna çıxaran onları düz iki gün yubatmışlar. Bu müddət ərzində dabanına tüpürüb qaçan erməni ordusunun əsgər və zabitləri fürsəti fövtə verməyərək müxtəlif maneələr, tələlər qurmaqla yanaşı toparlanmış, əlavə dəstək əldə etmiş, texniki təchizatını möhkəmləndirmişdir. Nəticədə silahlı qüvvələrimiz ərazilərimizi düşməndən azad etsə də çoxlu itkilər də vermişdir.

## İranın diplomatik fiaskosu

Gələk əsas mətləbə. İranın diplomatik dairələrinə yaxın olan "İran diplomatiyası" (www.irdiplomacy.ir) saytında "İranın ərazi bütövlüyünün qırmızı xətti olan bölgə: Tehran Qarabağda passiv yanaşmadan əl çəkməlidir" başlıqlı məqalə dərc olunub. Başdan ayağa Azərbaycan əleyhinə, həm də bir düşmən tərəfinin mövqeyi kimi. Məqalədə də qeyd edildiyi kimi, Laçın yolunda dinc azərbaycanlı fəalların dinc aksiyası İran hakimiyyətini narahat etməyə başlayıb. Ermənistana havadarlığını davam etdirən İran növbəti dəfə Azərbaycana qarşı hədə mesajları göndərib. Gəlin faktlarla danışaq. Məqalədə qeyd olunur: "Bakı hökuməti son günlər Ermənistan və Dağlıq Qarabağ Muxtar bölgəsi arasında Laçın dəhlizinin qarşısını kəsib. Bu hərəkət hətta 2020-ci ilin noyabrında bu dəhlizin mövcudluğunu nəzərdə tutan atəşkəs razılaşmasına da ziddir".



Təbii ki, bu mövqeyə qarşı reaksiya verilməli və məqalə müəllifinə və sifarişçilərə çatdırılmalıdır ki, "Dağlıq Qarabağ Muxtar bölgəsi" deyilən bir ərazi vahidi yoxdur. Laçın yolunu azərbaycanlı fəallar bağlamayıblar. 2020-ci ilin noyabr bəyanatına görə Ermənistan və Rusiyalı sülhməramlılar üzərlərinə götürdükləri öhdəliklərin bir çoxunu yerinə yetirməyiblər. Azərbaycan ərazisində qanunsuz talama prosesi davam edir və sülhməramlılar buna göz yumurlar, digər tərəfdən elə İranın da köməkliyi ilə Qarabağa Laçın yolu ilə qanunsuz silah daşınır. Qanunsuz erməni silahlı dəstələri isə hələ də ərazidə qalmaqda davam edir və s.

Məqalədə qeyd olunan başqa bir məqam: "Stepanakert süqut edərsə, Cənubi Qafqaz regionu və onun ətraf ölkələri, o cümlədən İran üçün xoşagəlməz ssenarilər təsəvvür etmək olar. Dağlıq Qarabağ kimi maneənin aradan qaldırılması Ermənistan ərazisinin işğalına və regionun xəritəsinin dəyişdirilməsinə, uzunmüddətli perspektivdə isə İranın şimal-qərb bölgələrinə təhlükəsizlik hücumlarına yol açır".

Separatçılardan bir addım da geri qalmayan müəllif Xankəndini "Stepanakert" adlandıraraq ermənidən çox erməni olmaq arzusunu gizlətmir. Məqalədən qeyd: "Qarabağ erməniləri İranın bölgədəki kapitallarından biridir. 1990-cı illərdə İran bu potensialdan istifadə edə bildi və Tehranın dəstəyi ilə Dağlıq Qarabağın baş naziri olmuş Robert Köçəryan 1998-ci ildə Ermənistanın baş naziri postunu tuta bildi. Ondan sonra Serj Sarkisyan da eyni yolu davam etdirdi və 20 il ərzində İrəvanın xarici siyasəti "Qarabağlılaşma" istiqamətində hərəkət etdi. Qarabağlıların rəhbərlik etdiyi Ermənistan regionda tarazlığın yaradılmasında önəmli rol oynadı, lakin 2018-ci ildə Sarkisyanın devrilməsi və Paşinyanın hakimiyyətə gəlməsi ilə bu rol aradan qalxdı".


© Trend News Agency






Burada İran rejiminin, müsəlmançılıqdan uzaq molla hakimiyyətinin əsl siması ortaya çıxır, Ermənistanı dəstəklədiyi faş olur. Hər kəsə bəllidir ki, hələ 90-ci illərdə Azərbaycan Ermənistanın təcavüzünə məruz qaldığı zaman Tehran İrəvanı - işğalçını dəstəkləyib.

## Mollaların "qırmızı xətti"

Molla rejimi son vaxtlar belə mesajlar göndərir, "Qarabağ İranın ərazi bütövlüyünün qırmızı xəttidir". Amma mollalar hələ də anlamaq istəmirlər ki, Azərbaycanın qırmızı xətti İran üçün keçərli deyil. Bu ərazilər həqiqətən Tehran rejiminin "qırmızı xətt"i idisə, Ermənistanın işğalı zamanı, bu ərazilərdəki müsəlmanlara aid olan məscidlərə ermənilər tərəfindən donuz bağlanan vaxt mollalardan biri bəyanat verər, etiraz edərdi. Amma bu vandallığa göz yuman Tehrandakı molla-erməni-fars rejiminin heç bir haqqı yoxdur, bu gün dünya ölkələri, hətta İran tərəfindən də tanınmış suveren ərazilərimizdə baş verənlər barəsində "qırmızı xətt" terminindən istifadə etsin. Bura Azərbaycan ərazisidir. İranın qırmızı xətti günahsız yerə öldürdüyü minlərlə insanın üstündən, əsarətdə saxladığı xalqların içindən keçir.

İranın diplomatik dairələrinə yaxın olan bir saytda yayımlanan bu məqalə Azərbaycana qarşı riyakar siyasətinin daha bir sübutudur. Molla rejiminin sifarişi əsasında hazırlanan bu tip yazılarla görünür molla rejimi Azərbaycana hansısa formada təsir etməyi düşünür. Amma unudur ki, Azərbaycan öz reallıqlarını özü yaradıb və hər hansı kənar qüvvələr, dairələr bu reallıqları dəyişə bilməz. O cümlədən İrandakı fars-molla rejimi. Laçın yolunda baş verən etiraz aksiyasının 9-cu günündə İranın Xarici İşlər Nazirliyi tərəflərə dialoq təklif edib.

Nazirliyin sözçüsü Nasser Kənani İSNA agentliyinə müsahibəsində deyib ki, Laçın yolunun açılması məsələsi mümkün qədər tez həll olunmalıdır. Ağayi Kənani inanmaq istədiyini bildirib ki, 9 noyabr 2020-ci il tarixli üçtərəfli atəşkəs bəyannaməsinin müddəalarının tam yerinə yetirilməsi iki ölkə arasındakı fikir ayrılıqlarına son qoya bilər. Onun sözlərinə görə, regionda sülh və sabitliyin bərqərar olması hər hansı lüzumsuz gərginlikdən qaçmağı tələb edir. Bəs, Kənaninin ölkəsi Azərbaycanın Qarabağı 30 il işğal altında olanda niyə dialoq təklif etmirdi, "qırmızı xətt"dən danışmırdı? Bəlkə, qırmızı mürəkkəbi qurtarmışdı?

## İranda isə etirazlar davam edir

İran adlı xalqlar həbsxanasının Şəhrikiurd, Saqqız, Sənanc, Şiraz, Tehran, Məşhəd və bir sıra digər şəhərlərdə etiraz aksiyaları davam edir. Aksiyalarda "Qadınlara azadlıq, millətlərə istiqlal!", "Pişəvərinin ruhu şad olsun!", "Azadlıq, ədalət, milli hökumət", "Diktatora ölüm!", "Azadlıq!" şüarları səsləndirilib. Dehdeşt şəhərində, Kohgiluyeh və Boyerahmed əyalətində etiraz edən gənclər hərbi yardım bazasına Kalaşnikov avtomatından atəş açıblar. Qərbi Azərbaycan əyalətinin Sarıdaş (Sərdəşt) şəhərində keçirilən etiraz aksiyaları zamanı həbs edilən Şəhriyar Adilinin İran rejiminin işgəncələri nəticəsində dünyasını dəyişdiyi bildirilir.

Şərqi Azərbaycan vilayətində bir qrup azərbaycanlı fəal 1945-ci ildə Cənubi Azərbaycan milli hökumətinin yaranmasının ildönümü ilə əlaqədar Təbrizdə divarlara "21 Azər", "Milli hökumət", "Pişəvəri", "Azadlıq, Ədalət, Milli Hökumət" milli şüarlar yazıblar. Güney Azərbaycan milli hökumətinin ildönümü Təbriz şəhərində qeyd edilib. "Qadınlara azadlıq, millətlərə istiqlal!", "Pişəvərinin ruhu şad olsun!", "Azadlıq, ədalət, milli hökumət" şüarları səsləndirilib. Eyni zamanda Təbriz şəhərində azərbaycanlı fəal Hüseyn Muxammediyan mağazasında təhlükəsizlik qüvvələri tərəfindən həbs edilib.

Tehran vilayətinin Əndiş şəhərindəki Bəsic qüvvələrinin bazası qəzəbli gənclər tərəfindən yandırılıb. Hüquq müdafiəçiləri xəbər agentliyinin məlumatına görə, etirazlar zamanı ölənlərin sayı 490 nəfərdir. Onlardan 68-i uşaq, 62-si hökumət qüvvələridir. Hazırda 18 262 nəfər həbs edilib, onlardan 3 788 nəfərin kimliyi və harada saxlandığı müəyyən edilib. Həbs olunanların 626-sı tələbədir. Bu günə kimi 1175 etiraz aksiyası keçirilib. Etiraz aksiyaları 161 şəhər və 144 universitetdə keçirilib.

Mollalara qarşı aksiyalar Avstriya, Almaniya, Paris və Londonda keçirilib. İranın insan haqları təşkilatı bir nəfərin edam edildiyini, 2 nəfərin isə edam edilməzdən əvvəl təkadamlıq kameraya köçürüldüyünü bildirib. İsrailin "Mako" xəbər saytı xəbər verir ki, "Qara Mükafat" haker qrupunun Fars xəbər agentliyinə hücumu zamanı əldə etdiyi məlumata görə, etirazlar zamanı İran ordusunun 115 əsgəri həbs edilib.

BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığı İranda edamlara son qoymağa çağırıb. Bundan əlavə, Avropa Birliyi İrana qarşı sanksiyaları genişləndirib. Almaniyanın Miqrasiya və Qaçqınlar üzrə Federal İdarəsi bildirib ki, İranda sentyabr ayında başlayan kütləvi nümayişlərdən sonra Almaniyaya sığınacaq istəyən İran vətəndaşlarının sayı keçən ilin eyni ayı ilə müqayisədə iki dəfə artıb.

"İranda ölüm hökmlərinin tətbiqi və icrası etirazları daha da gücləndirəcək". Bu barədə İranın Qum Dini Elmlər Seminariyasının Alim və Tədqiqatçılar Məclisinin bəyanatında deyilir. Vurğulanır ki, ölüm hökmlərinin tətbiqi və icrası ilə bağlı tələsik qərarlar ölkədə vəziyyətin sabitləşməsini təmin edən yol deyil. Bu, hakimiyyətin ölkədəki problemlərə laqeyd münasibətini əks etdirərək, cəmiyyətdə qəzəbi və nifrəti daha da artırır. Ölkədəki ədalətsiz vəziyyətə etiraz etmək hüququndan istifadə edərək məmurların zorakılığından qorunmağa çalışan şəxslər silahlı cinayətkar sayıla bilməz.

BMT-nin İqtisadi və Sosial Şurası isə İranın 2026-cı ilə qədər BMT-nin Qadının Statusu üzrə Komissiyasından çıxarılmasına səs verib. ABŞ İranda son aylarda davam edən etirazlar zamanı qadınların hüquqlarının pozulmasını əsas gətirərək ölkədən çıxarılma təşəbbüsü ilə çıxış edib. 29 ölkə çıxarılmanın lehinə, 8-i əleyhinə, 16-sı bitərəf qalıb. Avstriya, Argentina, Belçika, Benin, Bolqarıstan, Böyük Britaniya, Qvatemala, Yunanıstan, İsrail, İtaliya, Danimarka, Kanada, Kolumbiya, Latviya, Liberiya, Liviya, Yeni Zelandiya, Panama, Peru, Portuqaliya, Koreya Respublikası, ABŞ, Finlandiya, Fransa, Xorvatiya, Monteneqro, Çexiya, Çili və Yaponiya İranı təşkilatda görmək istəmədiklərinə səs veriblər. Boliviya, Zimbabve, Qazaxıstan, Çin, Nigeriya, Nikaraqua, Oman və Rusiya sənədin əleyhinə, Banqladeş, Beliz, Botsvana, Qabon, Hindistan, İndoneziya, Kot-d'İvuar, Mavrikiy, Meksika, Madaqaskar, Konqo Respublikası, Solomon adaları, Tayland, Tanzaniya, Tunis və Esvatini bitərəf kimi qeydiyyatdan keçiblər.

Bu arada İran paytaxtının şimal-qərbində yerləşən Keredj həbsxanasında baş verən iğtişaşlar zamanı bir məhbus ölüb, çoxlu sayda məhbus yaralanıb. Verilən xəbərə görə, bu barədə İranın rəsmi xəbər agentliyi İRNA Əlborz vilayətinin baş prokuroru Hüseyn Fəzli Xerikəndinin sözlərinə görə, Keredja şəhərinin mərkəzi həbsxanasının narkotiklə ittiham olunan və məhkum edilmiş vətəndaşların saxlandığı şöbəsində məhbuslar arasında toqquşma olub. Münaqişə zamanı bir nəfər ölüb, çoxlu sayda müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Təhlükəsizlik qüvvələrinin müdaxiləsindən sonra qarşıdurma dayanıb. Saxlanılan iki nəfər ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.

Yuxarıdakı fikrimizi təkrar etmək zorundayıq, İran getsin öz dərdi, daxili problemlərinin həlli ilə məşğul olsun. Qartala daş atmaq istəyən qarğaların başına haradan daş düşdüyünü də unutmasın.

**V.VƏLİYEV**

# Uşaq evlərindən çıxmış gənclərin sonrakı taleyi necə olur?



***Valideynləri tərəfindən atılan uşaqlar cəmiyyətin hər zaman qanayan yarası olub. Küçəyə atılan, doğulandan sonra başqa ailələrə verilən, uşaq evinə qoyulan körpələr... Bu, bütün dünyada da, Azərbaycanda da çox aktual müzakirə olunan mövzulardır. Dünyada atılmış uşaqların ailə tərbiyəsi formalarının inkişafının təsvirini təqdim edərək ondan başlamaq lazımdır.***





ARAŞDIRMA

Keçmiş dövrlərdən Xristian Avropasında monastırlar yoxsullara və evsizlərə qayğı göstərirdilər və demək olar ki, hər bir monastır ordeninin tərk edilmiş və kimsəsiz uşaqlar üçün sığınacaqları var idi. Müasir dövrdə də yetimlər üçün uşaq evləri sistemi formalaşıb. Bir sıra ölkələrdə kilsə icmaları hələ də uşaq evləri saxlamağa davam edir, burada uşaqlar qayğı və dini təhsil alırlar. 18-ci əsrdə əksər Avropa ölkələrində yoxsul insanların ehtiyacları və əzabları barədə artan məlumatlılıq, yetimlərə yardım etmək üçün onları uşaq evlərinə yerləşdirməkdən daha humanist yollar tapmaq istəyi var idi. 19-cu əsrin əvvəllərində uşaq evlərindəki uşaqların taleyindən narahat olan və onları islah etməyə və daha humanist mühit yaratmağa çalışan kifayət qədər yeni xeyriyyə təşkilatları yarandı. Müasir himayədarlıq sisteminin kökləri bu hərəkatda yatır. Lakin o günlərdə bütün səylər uşaqların həyatını xilas etməyə yönəlmişdi, heç kim onların valideynlərini də xilas etməyə çalışmırdı. Belə baxışlar, demək olar ki, 20-ci əsrin ortalarına qədər mövcud olmuşdur. İngiltərədə "uşaqların həyatını xilas etmək" ideyası rəsmi himayədarlıq sisteminin əsasını təşkil edirdi. Bütün ölkələrdə olmasa da, bir çox ölkələrdə atılmış uşaqların qayğısına qalmaq ilk növbədə onların qohumlarının üzərinə düşürdü. 20-ci əsrdə Avropa və Amerikada uşaqların ailəyə verilməsi sistemi öz inkişafında bir sıra mərhələlərdən keçmişdir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun verdiyi məlumata görə, dünyada 2,7 milyondan çox uşaq uşaq evləri, internat məktəbləri və oxşar müəssisələrdə yaşayır. Bəs ölkəmiz atılmış uşaqlara necə qayğı göstərir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Uşaq evindən çıxmış gənclərin əksəriyyətinin gedəsi yeri olmadığı üçün də onlar həyatın ən böyük "şillə"ni küçələrdə dadırlar. Elə bir problemlə üzləşirlər ki, ya kirayədə qalırlar, ya da qohumu varsa, qohum yanına gedirlər. Həmin yerlərdə ev sahibləri, qohumların onların başına açdığı oyunları isə hər zaman uşaq evinin "məzunları"nın həyat hekayələrindən bilirik. Təəssüf ki, uşaq evindən "məzun" olan qızlar daha şanssız olur. Onlar harada yaşayır, necə həyat tərzi sürür?

Sovet dövründə 18 yaşdan sonra internat evlərini tərk edən kimsəsiz uşaqların həm təhsillərini davam etdirmələri, həm də mənzil və işlə təmin olunmaları üçün şərait yaradılırdı. Amma indi bu problemi həll edilən yeniyetmələrin sayı çox aşağı səviyyədədir. Məhz buna görə onların ailə qurmaq, gələcək müqəddəratlarını həll etmək şansları yoxdur. Cəmiyyətdə onlar üçün lazımi şərait yaradılmadığına görə internatların rəhbərləri 18 yaşı tamam olandan sonra da həmin yeniyetmələri internat evlərində saxlamağa məcbur olurlar. Halbuki bu, qanunla qadağan olunub və onlar uşaqların sonrakı taleyinə cavabdeh deyillər. Bütün bunlarla yanaşı, sözügedən problemin aradan qaldırılması üçün əvvəlki illərə nisbətdə tədricən işlər görülür. İnternat evini tərk etmiş qızların mənzil problemini qismən həll etmək üçün Heydər Əliyev Fondu tərəfindən paytaxtda beşmərtəbəli daş bina inşa edilib. Bundan başqa, uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı çərçivəsində də müəyyən işlər həyata keçirilir.

"Ümüd yeri" uşaq sığınacağının rəhbəri Nigar Mənsimova: "Ümüd yeri" sığınacaq evi Azərbaycanda yaradılmış ilk sığınacaq yeridir. Burada küçə həyatına məruz qalan, çarəsiz vəziyyətə düşən atılan, işgəncələrə məruz qalan və s. uşaqlar üçün isti bir yuvadır. Bu ev 1997-ci ildən fəaliyyət göstərir. Artıq 5 ildir gecə-gündüz qapılarımız möhtac uşaqların üzünə açıqdır. Qeyri-hökümət təşkilatı fraqmatında fəaliyyət göstəririk. Dövlətimizin bütün qanunlarından olduqca razıyam. Çox gözəl qanunlarımız var ki, iş görmək istəyən insanları dəstəkləyir və onlara hüquqi ixtiyarları verir. Sığınacaqda qalan uşaqların hərəsi bir səbəbdən burdadır, təbii ki əksəriyyəti hüquqları pozulmuş uşaqlardır. Burada qaldıqları müddətcə onlara sosial, psixoloji və hüquqi yardımlar olunur.

Bizim uşaq evindən çıxan gənclərlə bağlı bu il çox sevindirici xəbərlərimiz oldu. Məsələn məzun olan 8 gənc Sumqayıt şəhərində təzə tikilən binalarda bir otaqlı mənzillə təmin olundu. Bu bizim dövlətimizin məhs valideyn himayəsindən məhrum olmuş uşaqlara verdiyi ən böyük və ən gözəl dəyərdir. Buna görə dərin təşəkkürümüzü bildiririk".

**Havar Şəfiyeva**



Mətanət Məmmədova

# Qürur dolu 10-cu gün

***Biz Birinci Vətən Müharibəsi ilə İkinci Vətən Müharibəsi arasındakı zaman kəsiyinin o başında deyil, bu başındayıq. Yəni 30 ilin əvvəlindəki torpaqları işğala məruz qalan, yurdundan zorla qovulan, qapıları bağlı qalan, məcburi qaçqınlıq, köçkünlük həyatı yaşayan, gözüyaşlı insanlar deyilik. Biz 44 günlük Vətən müharibəsinin Zəfərinin sahibləriyik. Torpaqlarımızı erməni işğalından azad edib, qələbədən ötən iki ildə qürurla yaşayan, başımızı dik tutub öyünən xalqıq.***

Artıq əzəli torpaqlarımıza Böyük Qayıdışa başlayan, Qarabağın 30 illik qara örpəyini başından açıb, miskin libasını əynindən çıxararaq ona toy-bayram donu geyindirən, quran, yaradan xalqıq. Biz torpaqlarımızın sahibləriyik. Həm də bu torpaqların sərvətlərinin sahibləriyik. 30 il boyunca ermənilərin taladıqları, satıb-sovurduqları sərvətlərimizə "əl vurma", balta çaldığı ekologiyamızın zülmünə "son" deyənlərik.

Elə bu səbəbdən də onuncu gündür ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Xankəndi-Laçın yolunda keçirilən aksiyalar davam edir. Qürurlu 10 gün. Bəli, necə ki, 44 gündə övladlarımızın cəbhəyə yollanması, düşmənin gözünə dağ çəkməsi, torpaqlarımızı qarış-qarış yağıdan azad etməsi ilə qürur duyurduqsa, müharibə meydanından çox-çox kənarda bombalanan evlərimizin, həyət-bacamızın düşdüyü yararsız vəziyyətə görə alnımızı belə qırışdırmırdıqsa, "təki qələbə çalaq, yurdumuz azad olsun",- deyirdiksə, birliyimiz, həmrəyliyimizlə fəxr edirdiksə, ötən 10 gündə də Vətənimizin yetişdirdiyi gənclərin mübarizliyi fonunda eyni hissləri yaşayır, qürur duyuruq.

Onların payızın şaxta-soyuğunda etiraz aksiyasında iştirakları, ekologiyamızın talanmasına son qoyulanadək bu aksiyaları davam etdirmələrini əzmlə söyləmələri ilə qürur duyuruq.

Bu aksiyaya ölkənin müxtəlif regionlarından olan fəallar qoşulur. Etirazçıların tələbləri dəyişməzdir: Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə son qoyulmalı, aksiya iştirakçılarının Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına baş çəkmələri təmin edilməli, Rusiya sülhməramlı kontingentinin komandanı general-mayor Andrey Volkov aksiya keçirilən yerə gəlməlidir.

Aksiya iştirakçılarının "Şəhidlər ölməz, Vətən bölünməz", Azərbaycan oyaqdır, sərvətinə dayaqdır", "Qarabaq Azərbaycandır!" kimi şuarlar, Vətən, torpaq haqqında mahnılar səslendirmələri, mətbuat nümayəndələrinə müsahibələr vermələri, tələbləri yerinə yetirilənə qədər gözləyəcəklərini bildirmələri İkinci Vətən Müharibəsində soydaşlarımızın birlik və həmrəyliyini gözlər önünə gətirir. Hər bir Azərbaycan vətəndaşının 44 gündə Ali Baş Komandanın əmrini gözləməsi, Qarabağ üçün canından keçəcəyini bildirməsi, gecə-gündüz ayıqsayıq dayanıb hadisələri izləməsi nə qədər qürur yaradırdısa, bu günlər torpaqlarımıza ekoloji zərbə endirənlərə qarşı etiraz aksiyasındakı insanların səbri, əzəməti də bir o qədər qürur doğurur.

Bəli, nə Azərbaycan otuz il əvvəlki Azərbaycandır, nə də azərbaycanlılar 30 il əvvəlki insanlar deyil. Düzdür, hünərimizi, mübarizliyimizi ata-babalarımızdan almışıq, onların qanından hopub qanımıza vətənpərvərlik, lakin biz həm də 30 ildir ki, müstəqil ölkənin vətəndaşlarıyıq. Hüquqlarımızın müdafiəsində dayanan, insan amilini dövlət siyasətinin əsas prioritetinə çevirən bir ölkənin vətəndaşlarıyıq. Kim bizim ərazimizə yaxın gələ bilər, kim bizim sərvətlərimizi talaya bilər?

Bu gün bizi bütün dünya əzmimizlə, hünərimizlə, iqtisadi gücümüzlə, milli ordumuzla, birlik, həmrəyliyimizlə, ən əsası isə xalqının arxasında qətiyyətlə dayanan Ali Baş Komandanımızla, dövlətimizin layiqli rəhbəri ilə tanıyır. Bizi Zəfər xalqı kimi tanıyır... Bu Zəfəri həm siyasi, həm də döyüş meydanında qazanan oğullarımızı tanıyır.

Bütün bunlara görə də bu aksiyanın da sonunun nə ilə nəticələnəcəyini bu gündən görmək bir o qədər çətin deyil. Hələlik isə qürurlu günlər davam edir...

# Bənzərsiz sənət əsərlərinin müəllifi

*Prezident İlham Əliyevin Sərəncamı ilə Ömər Eldarov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib*



Uzun illərdir ki, Azərbaycan heykəltaraşlıq sənətində öz istedadı, gərgin əməyi ilə yaradıcılıq dünyasına bir-birindən fərqli əsərlər bəxş edən Xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov mənalı və zəngin həyat yolu ilə özünəməxsus bir tərcümeyi-hal yazaraq dünya miqyaslı sənətkarlarla isminin çəkilməsinə nail olmuşdur. Mənalı ömrünü heykəltaraşlıq sənətinə həsr edən Ömər Eldarov bu gün yaratdığı əsərləri ilə özünü zamanlara həkk olunacaq portretini yaradıb: Ömər Eldarov portreti. Bu gün böyük sənətkarın 95 yaşı tamam olur. Bir əsrə yaxın bir ömür. Neçə onilliklərdə öz sənət dünyasını yaratmışdır. Çətin bir sənəti özünə seçən Ömər Eldarov bu yolda yorulmadan çalışdı. İnsan talelərini öz simalarında yaratmaq, onun cizgilərini işıqlandırmaq istedadla yanaşı, ömürlərə bələd olmaq, onların dünyasına yaxın olmaq tələb edir. Sənətkarın fəaliyyəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", "Şərəf", "İstiqlal" ordenləri, eləcə də Azərbaycanın ən yüksək mükafatına - "Heydər Əliyev" ordeninə layiq görülüb. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ömər Eldarovun 95 yaşında isə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi onun Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə olan diqqət və qayğıdır.Ömər Eldarov müsahibələrinin birində belə deyir: "Deyirlər ki, qocalıq sevinc deyil. Vaxtanq Kikabidze oxuyur ki, mənim illərim mənim sərvətimdir... Bilirsiniz, yenə də cavanlıq hamısından yaxşıdır, hətta uşaqlıq. Mən uşaqlığımı bayram kimi xatırlayıram. Uşağa hər şey maraqlıdır, onun üçün hər şey yenidir. Uşaq gördüyü hər şeyə sevinir. Uşaqlıq bütün insanların ən xoşbəxt dövrüdür. Təkcə insanların uşaqlığı deyil, bütün canlılarınkı həmişə şən və sevinclidir".

## "ƏN BÖYÜK MÜKAFATINIZ XALQIMIZIN SİZƏ OLAN BÖYÜK SEVGİ VƏ HÖRMƏTİDİR"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ömər Eldarovun yubileyi ilə əlaqədar etdiyi paylaşımda deyilir: "Sizi 95 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram! Öz yaradıcılığınızla milli təsviri incəsənətin gözəl ənənələrini zənginləşdirdiyinizə görə çox sağ olun! Siz Azərbaycanın yüksək mükafatlarına layiq görülmüsünüz. Lakin düşünürəm ki, ən böyük mükafatınız xalqımızın Sizə olan böyük sevgi və hörmətidir. Uca Allah Sizi və doğmalarınızı qorusun! Dərin hörmət və sevgilərlə, MEHRİBAN"

Əlbəttə ki, böyük sənətkarlara, bu yola ömür həsr etmiş insanlara daima həssalıqla yanaşılır, onlar layili qiymətlərini alırlar. "İstiqlal" və "Şərəf" ordenli akademik Ömər Eldarov bir çox bənzərsiz sənət əsərlərinin müəllifdir. Bu sırada Ulu Öndər Heydər Əliyevin, görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın qəbirüstü abidələri, Tokay Məmmədovla birgə ucaltdığı Füzulinin heykəli və daha neçə-neçə sənət incisi var. Təsadüfi deyil ki, sənətşünaslar Ömər Eldarovu milli heykəltəraşlığımızın lideri kimi səciyyələndirirlər. Dövlət İncəsənət Muzeyinin birinci zalında nümayiş etdirilən Zərifə xanım Əliyevanın heykəli onun ən çox sevdiyi sənət əsərlərindəndir. Bu haqda belə deyirdi: "O, mənim şəxsi emalatxanamda düz 8 il saxlanılıb. Bu, məni heç də sıxmır, tıncıxdırmır, əksinə böyük şövq verirdi. İndi yaxşı xatırlayıram. Əsərin Bakı İncəsənət Mərkəzində keçirilən təqdimat mərasimində mərhum akademik Fərəməz Maqsudov çıxışı zamanı deyirdi: Möcüzədir, elə bil bu mərmər parçasında sədaqətli ömür-gün yoldaşının, qayğıkeş bir ananın, bir vətənpərvərin, bir ziyalının, istedadlı bir həkimin, müdrik bir alimin ürəyi döyünür. Bu 8 ildə emalatxanada onunla dəfələrlə dialoq qurub, söhbətlər etmişik. Nədən danışmışıq? İnsanlara həsr olunmuş bir ömürdən, qaranlıq gözlərə işıq bəxş etməsindən, həyat yoldaşına tükənməz sevgisindən, çətin məqamlarda ona dəstək olmasından, uşaqlarına, nəvələrinə qayğısından, sevgisindən... İmkansızlara, kasıblara köməyindən, böyük itki verənlərin dərdinə şərik çıxmağından. Onun həyat uğrunda mübarizəsindən. Və hər dəfə bu valehedici qadının qəlbinin döyüntülərini, xəfif, titrəyişli səsini eşidirdim. Hələ o vaxt ruhumla bağlı olduğum bu obraza sonra da müraciət etmək qərarına gəldim və belə də oldu..."






Qeyd edək ki, Ömər Eldarov 1927-ci ildə dünyaya göz açıb. Azərbaycan Rəssamlıq Məktəbində, sonra isə Rusiyanın Leninqrad (indiki Sankt-Peterburq) şəhərində İ.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun heykəltəraşlıq fakültəsində təhsil alıb. O, hələ gənc yaşlarından yerli və beynəlxalq sərgilərdə fəal iştirak edib. 1958-1968-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının katibliyinə üzv seçilib, 1970-ci ildə isə SSRİ Rəssamlıq Akademiyasının heykəltəraşlıq üzrə Bakıdakı yaradıcılıq emalatxanasının rəhbəri təyin edilib. Eyni zamanda, Bakı Sovetinin deputatı (1969-1973) kimi fəaliyyət göstərib, mədəni-maarif işi üzrə komissiyanın rəhbəri olub.Yaradıcılıq fəaliyyəti ərzində onun xeyir-duası ilə bir neçə nəsil istedadlı heykəltəraş bu çətin, eyni zamanda, şərəfli sənətin yollarında irəliləyib və bu gün də irəliləməkdədir.Ulu Öndərin obrazı heykəltəraşın yaradıcılığında xüsusi yer tutur. O, Heydər Əliyevin Naxçıvanda, Bakıda və digər şəhərlərdə ucaldılmış neçə-neçə abidəsinin müəllifidir. Ulu Öndərin Fəxri Xiyabandakı və Ali Məhkəmə binasındakı abidəsi özündə yüksək bədii-estetik məziyyətləri yaşadan sənət nümunələridir. Ö.Eldarovun Ümummilli Liderin vaxtilə yaşadığı binanı bəzəyən xatirə lövhəsi də özünəməxsus forma-biçim və plastika mədəniyyəti ilə seçilir. Elə bu lövhənin qonşuluğundakı məşhur oftalmoloq Zərifə xanım Əliyevanın xatirə lövhəsi də böyük sənətkarlıqla işlənilmiş plastika nümunəsidir. Ö.Eldarov Zərifə xanımın Fəxri Xiyabandakı məşhur məzarüstü abidəsinin də müəllifidir. Bu əsərin mərmər variantı hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş etdirilməkdə, çağdaş milli heykəltəraşlığımızın uğuru kimi qəbul olunmaqdadır.

## BƏŞƏRİLİLİK VƏ MİLLİLİK BİR ARADA

Akademik Ömər Eldarovun yaradıcılığında obrazların psixoloji aləminin, fərdi keyfiyyətlərinin təcəssümü, kompozisiyanın tamlığı diqqəti xüsusilə cəlb edir. Müəllifin yaratdığı obrazlar sənət və xarakter baxımından fərqli insanlardır. Müəllifi olduğu Natəvanın heykəlində müsəlman qadınının, eyni zamanda, lirik şairin, müvafiq dövrün və mühitin vəhdəti böyük məharətlə əks etdirilmişdir. Obrazın zahiri görkəmi, geyimi, barmaqlarının vəziyyəti, bir sözlə sənətkarın gözə çarpdırdığı hər bir şey Natəvanın romantik qəlbini və milli keyfiyyətlərini canlandırmaqdadır. Heykəltəraşın bütün yaradıcılığı boyu müxtəlif materiallarda yaratdığı portretləri obrazı dərindən duymaq, onların səciyyəvi cəhətlərini qabartmaq istedadı xüsusilə yaddaqalandır. Onun oğlu Müslümə həsr etdiyi portretdə də düşüncələrə bürünmüş gənclik ehtirasının ifadəsi qabarıqdır. Qızı Lalənin, Maestro Niyazinin (1984) və başqalarının portretlərində də zərifliyin və yaradıcılıq ehtirasının bədiiləşmiş obrazını canlandırmağa müvəffəq olmuşdur. Akademik Ömər Eldarovun yaradıcılığında Azərbaycan və dünya heykəltəraşlıq məktəbinin ən mükəmməl elementləri əksini tapır. Onun əsərlərinin ölkəmizin hüdudlarından kənarlarda uğur qazanması Ömər Eldarov sənətinin milliliklə yanaşı, bəşəriliyini, geniş məkanda və bütün zamanlarda qəbul olunduğunu bir daha təsdiqləyir.

***Zümrüd BAYRAMOVA***

# "Nar"ın sosial layihəsi NETTY mükafatına layiq görüldü

***"Nar"ın korporativ sosial məsuliyyət siyasəti çərçivəsində həyata keçirilən "Jest dili" layihəsi "NETTY 2022" milli internet mükafatına layiq görüldü. Jestdili.az Azərbaycan dilində ilk onlayn işarə dili lüğəti kimi "Elm, Təhsil və İnnovasiyalar" nominasiyası üzrə ən yaxşı layihə seçildi.***

Qeyd edək ki, onlayn jest dili lüğəti Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) "Sosial layihələr" müsabiqəsinin qalibi olan "Doğma jest dili" layihəsi çərçivəsində "Nar"ın maliyyə dəstəyi və "Karlara Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə hazırlanıb.

Final mərasimində mükafatı qəbul edən "Azerfon" MMC-nin ("Nar" brendi) İctimaiyyətlə Əlaqələr departamentinin direktoru Əziz Axundov bildirib: "Müştəri yönümlü mobil operator olaraq, fəaliyyətimiz hər kəs üçün yüksək keyfiyyətli mobil xidmətlər təmin etməklə məhdudlaşmır; "Nar" həm də sosial layihələr vasitəsilə cəmiyyətin həyatına müsbət dəyər qatır. Jest dili layihəsi eşitmə məhdudiyyəti olan insanların cəmiyyətə inteqrasiyasını təmin etməklə yanaşı, gündəlik həyatlarını daha da rahat edir."




Jestdili.az veb resursu təxminən 3 minə qədər söz və söz birləşməsi jestlərinin izahedici mətnləri, eyni zamanda 2100-dən artıq jestin şəkilləri və videolarını ehtiva edir. Layihənin əsas məqsədi eşitmə məhdudiyyətli insanların sosiallaşmasını və cəmiyyətə inteqrasiyasını gücləndirməkdir. Həmçinin, geniş tərkibli vahid lüğətin yaranması ilə jest dilinin standartlaşması prosesi asanlaşır.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

TƏHLİL

# Ermənistanda müşahidə olunan PARADOKSLAR



***Daim Rusiyadan asılı vəziyyətdə qalmaq, hətta rusların himayəsi altında möcud olmaq Ermənistanın, bütövlükdə ermənilərin hər zamankı arzusu olub və məhz bu da işğalçı ölkənin ən böyük problemidir, çünki mövcudluğu başqasının əlindədir, müstəqilliyindən də söhbət gedə bilməz. Rəsmi Moskvanın isə belə bir niyyətinin, yəni erməniləri bundan sonra himayəyə götürmək niyyətinin olmaması artıq göz önündədir, amma bu o demək deyil ki, ruslar Ermənistandan, bütövlükdə Qafqazdan əllərini üzüblər. Rusiya üçün kənar və təhlükəli qüvvələrin adamı olan Nikol Paşinyana bu zamana qədər Moskva etibar etməyib və etməyəcək də, amma işğalçı ölkədəki hadisələrə təsirləri inkar edilə bilməz. Bütün bu məqamlar isə Ermənistanda paradoksların müşahidə olunmasının əsas səbəblərindəndir.***

İndi ermənilərin bir qismi Rusiyadan üz döndərsə də, digər qismi hələ də ümidlərini ruslara bağlayıb, hansıki bu ümidlərinin puç olduğunu hər kəs başa düşür. Əvvəla ona görə ki, Ukrayna ilə müharibə Rusiya üçün kifayət qədər qayğılar yaradıb. Hətta Rusiya artıq silahlı münaqişəyə tab gətirə də bilmir və indi öz hayındadır, hayların hayında yox. Digər tərəfdən də axı, Türkiyə ilə siyasi və iqtisadi tərəfdaşlıq hal-hazırda Rusiya üçün daha vacibdir və Azərbaycanla bir olan, qardaş olan ölkəni atıb onun rəqibini tutmaq ruslara sərf etmir. NATO ilə qarşıdurma fonunda Rusiyaya Ermənistanla yox, Türkiyə və Azərbaycanla əlaqələri daha da yaxşılaşdırmaq sərfəlidir. Bu baxımdan Ermənistanın maraqları, ermənilərin arzuları Rusiya üçün heç hesaba belə alınmır və belə bir məqamda işğalçı ölkədə çox müəmmalı bir vəziyyətin hökm sürməsi, paradokslar belə anlaşılan, başadüşüləndir.

Bəs Ermənistan özünə, öz gücünə necə güvənə bilər? Bunun üçün, yəni öz gücünə arxalanması üçün potensialı varmı? Əlbəttə ki, yoxdur, amma bunu bilən ermənilərin səs-küy salması məhz paradosk sayılır. Əvvəla ona görə ki, Ermənistan zirehli texnikasının, hərbi arsenalının yarıdan çoxunu, hərbçilərinin də daha böyük əksəriyyətini 44 günlük müharibədə itirib və güvənəcək heç nəyi yoxdur, amma paradoksal şəkildə dingildəyir. Məğlubiyyətdən sonra hələ də özünə gələ bilməyən Ermənistanın, silahlarını daha da təkmilləşdirən, hərbi potensilını dinamik şəkildə artıran, mümkün münaqişəyə hər an hazırlığı artan Azərbaycana qarşı dilemma ilə, yaxud hansısa şərtlə çıxış etmək arzusu belə paradoksdur. Çünki dəmir yumruğun əzdiyi başın nə yerdən qalxmağa imkanı var, nə də Azərbaycanla qarşı-qarşıya durmağa. Amma buna baxmayaraq, iddialar, təkəbbür dolu mövqelər, hətta revanş arzusu və niyyəti özünü biruzə verir ki, bu paradokslar ermənistan üçün əslində, gələcək fəlakət deməkdir.

Hadisələrin gedişi təsdiq edir ki, Ermənistanı yaxşı heç nə gözləmir. Heç ermənilər özləri də vətəndaşı olduqları ölkənin gələcəyi barədə nikbin düşüncəyə malik deyillər. Bu ölkə haqqında bir dənə də nikbin proqnoz verilmir. Bəli, işğalçı ölkəyə vədlər verilir, bu isə proqnoz demək deyil, sadəcə alət olaraq ermənilərdən, Ermənistandan istifadə edilməsi fonunda bu baş verir. Hansısa bir ölkə də birbaşa olaraq nə Ermənistanın yerinə döyüşmək hüququna sahibdir, nə də istəyinə. İran kimi, Fransa kimi hansısa ermənipərəst



ölkə Ermənistanı guya müdafiə edə, yaxud qarşıdurmaya, təxribatlara provokasiya edə, təhrik edə bilər, amma 44 günlük müharibə təsdiq etdi ki, nə Makron, nə Rəisi, nə də molla rejimi dəmir yumruğun altına başını qoymadı, əzilən erməni başları oldu. Hansısa kənar qüvvələrin yağlı dilinə, şirin vədlərinə arxayın olaraq, güvənərək ermənilərin baş qaldırmaları ilə yalnız öz başlarının əzilməsi özü də paradoksal haldır, çünki yalnız öz başları əzildi, onlara vəd verənlərin yox. Məsələ burasındadır ki, hələ də ermənilər bu reallığa ya görə bilmirlər, başa düşməkdə çətinlik çəkirlər, ya da başa düşmək, görmək istəmirlər, çünki çirkin niyyətili ambisiyaları gözlərini bağlayıb.

Dünyanın heç bir dövləti ermənilərin arzuladığı qondarma qurumu tanımayıb, tanımır da. Heç Ermənistan özü də bunu etməyib. "Əgər Ermənistan Qarabağın "müstəqilliyini" tanısaydı, bu, bizim münaqişənin həlli ilə bağlı danışıqlardan imtina etməyimiz demək olardı. Müstəqilliyi tanıyırıqsa, o zaman daha nə danışıqlar



aparaq? Ona görə də vəziyyəti daha da çətinləşdirməmək üçün tanımırıq", deyən Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan açıq şəkildə bunu bildirib. Ən böyük paradoks isə odur ki, bunu Ermənistan özü etmədiyi halda başqa dünya dövlətlərindən gözləyib və hələ də gözləməkdədir. Məsələ burasındadır ki, dünyanın heç bir ölkəsinin tanıyacağına ümidləri də yoxdur. O halda nəyə görə hələ də kor tutduğunu buraxmayan kimi inad edirlər?

Qərbə işğalçı ölkənin ümid etməsi də gülünc görünür, çünki bu ölkənin əsas müttəfiqləri hesab olunan Rusiya və İran Qərb üçün qəbuledilməz hesab olunur. Bu halda Qərbin İrəvanı dəstəkləyəcəyi də ağlasığan deyil. İran isə həm Qərbdən, həm də Türkiyədən ehtiyatlanaraq etdiyindən artığını Ermənistan üçün bundan sonra edə bilməyəcək. Bir tərəfdən də Türkiyənin Cənubi Qafqazda təsirinin güclənməsindən ehtiyat edən İran qəti şəkildə Azərbaycan-Türkiyə tandeminə qarşı çıxmağa cəsarət edə bilməz. Eyni zamanda, Azərbaycan və Ermənistanla sərhəddə yaşayan, üstəlik, ölkə daxilindəki vəziyyətdən narazı olan, vaxtaşırı etiraz aksiyalarında iştirak edən on milyonlarla azərbaycanlının olması da İranın öz həddini aşmaması üçün bir faktordur. Ona görə ki, İran sərhəddində Türkiyə-Azərbaycan blokunun güclənməsi müstəqil Quzey Azərbaycanın mövcudluğu kimi bir çağırışa səbəb ola bilər və bu da İran üçün heç də arzuolunan deyil. Belə bir məqamda, bu vəziyyətdə İran maksimum dərəcədə edə bildiyini Ermənistan üçün etmiş sayılır və bundan artığına heç ermənilər özləri də inanmırlar. Amma Ermənistan üçün paradoksal halın biri də odur ki, bu reallıqları bilə-bilə bu ölkə hakimiyyəti, eləcə də vətəndaşlarının bir qismi İrana güvənmək fikrindədir.

Azərbaycana məxsus olan Qarabağ ərazisinə olan iddialarından əl çəkərək sakit, stabil həyat tərzinə keçmək imkanı ola-ola Ermənistan bundan niyə imtina edir? Maraqlıdır, amma səbəbsiz deyil. Səbəb odur ki, buna mane olanlar və mane olan ideologiya var bu işğalçı ölkədə. "Miatsum" adlanan bu ideyalogiya Ermənistanın milli ideologiyasının əsasını təşkil edir və bu ölkənin bəlası da bundan başlayır. Düzdür, Nikol Paşinyan və onun komandası bu ideologiyanın onları uçuruma apardığını yaxşı bilir, amma buna qarşı çıxa da bilmir. Ona görə ki, Ermənistan cəmiyyətinin böyük əksəriyyəti üçün buna qarşı çıxmağın qəbuledilməz olduğunu da yaxşı bilirlər, üstəlik, onu da bilirlər ki, buna qarşı çıxmağın qəbuledilməz olduğu qənaətində olan kütlə Paşinyan hakimiyyətindən güclüdür. Daha dəqiq desək, erməni baş nazir bu gücdən qorxur və həmin kütlə ilə guya razılaşması da daxili auditoriyaya hesablanan addım hesab olunur. Məhz paradoksal məqamlardan biri də bundan ibarətdir ki, daxili auditoriyaya qarşı çıxaraq, həmin ideologiyadan imtina edə bilməyən Ermənistan hökuməti gah Qarabağla bağlı məsələnin guya həllinə çalışdığını bəyan edir, gah da danışıqlar masasında, özü də utanmadan oturur. Bir halda ki, sözügedən ideologiyaya qarşı çıxa bilmirsə, bu hakimiyyət, bu dövlət hansı danışıqları, özü də müstəqil şəkildə apara bilər? Axı müasir Ermənistanın sosial-psixoloji durumu elədir ki, Paşinyan və onun hakimiyyətinə Qarabağı tərk etməyə imkan vermir və ilk növbədə bu psixoloji problemi həll etməli olduğunu işğalçı ölkə hakimiyyəti dərk etməlidir.

Erməni politoloqları içərisində Ermənistanın Qarabağla bağlı vəziyyəti geri qaytarmaq şansının olmadığı qənaətində olanlar da var, Qarabağdan geri çəkilməyi mümkün hesab edən insanlar da. Məsələ burasındadır ki, onlar həmin o çürük ideologiyaya inananlardan gücsüz olduqlarını da bilirlər və fikirlərini də qorxa-qorxa bildirirlər. Daşı ətəyindən tökmək istəməyənlər bilməlidirlər ki, Ermənistan bölgədə tək deyil, dörd dövlətin əhatəsindədir. Özü də bu dövlətlərdən ikisinin xalqı türk xalqıdır və həmin dövlətlərin də qardaşlıq münasibətləri var. Həmin iki dövlət, yəni Türkiyə və Azərbaycan nəinki birlikdə, hətta ayrı-ayrılıqda belə hərbi və iqtisadi cəhətdən ölçüyəgəlməz dərəcədə Ermənistandan güclüdür. Üstəlik bu dövlətlərin müttəfiqliyi, qardaşlığı birliyi qarşısında istənilən çürük ideologiya fiaskoya məhkumdur və bunu ermənilər nə qədər gec başa düşəcəklərsə, bir o qədər ziyan görmüş olacaqlar.

Ermənistanda müşahidə edilən, bu işğalçı ölkə üçün xarakterik olan paradokslar təsdiq edir ki, rəsmi İrəvan çox uğursuz siyasət, hətta mənasız geosiyasət yürüdür və bu da həmin ölkənin fəlakətinə səbəb olacaq. Məhz 44 günlük müharibədən, Ermənistanın rüsvayçı məğlubiyyətə, kapitulyasiya sənədinə imza atmasından sonra separatçı rejimin qalıqlarının da əl-qolu bağlı görünür, baxmayaraq ki, hələ də çabalayırlar. Rusiyadan əli üzülən, İranın vədlərinin mənasız olduğunu anlayan, Fransanın yalnız sözdə dəstək olduğunu görən, Qərbin dəstəyinə bel bağlamayan Ermənistanın dovlət quruluşu, modeli, hətta milli ideyası belə havadan asılı qalır. Bütün bunların fonunda hansısa çürük ideologiyanı irəli sürmək, arxasınca getmək və nəyə isə ümid etmək, inanmaq təkcə axmaqlıq deyil, həm də çox gülünc bir paradoksdur ki, bunu hamı Ermənistanda müşahidə edir.

**İnam Hacıyev**



# "Onlar ermənimaramlılıq missiyası həyata keçirirlər"

***"Biz bir qrup QHT və Vətəndaş cəmiyyəti institutu nümayəndələri olaraq ilk gündən aksiyada iştirak etdik. Sülhməramlı kontingent Xankəndi-Laçın yolunda keşik çəkirlər. Onlar guya sülhməramlı missiya həyata keçirirlər. Lakin təəssüflər olsun ki, onlar bu prosesdə sülhməramlılıq missiyasından daha çox erməni məramlılıq missiyası həyata keçirirlər". Bu sözləri S?A-ya açıqlamasında "Kamillik Vətəndasların Hüquqi Maarifləndirməsi" İctimai Birliyinin sədri, jurnalist Niyaz Niftiyev deyib.***

Onun sözlərinə görə, aksiya iştirakçıları çox fəal idi: "Bizim tələbimiz ilk gündən ekoloji terrora son qoyulması ilə bağlı idi. Azərbaycanın üç qızıl yatağında erməni tərəfinin sifarişi ilə xarici şirkətlərin biri oranı istismar edir və oradan əldə olunan gəlirdən Ermənistan hakimiyyəti, qondarma rejim qidalanır. Bizim də məqsədimiz bu talançılığa son qoyulmasıdır. İstəyirik ki, Azərbaycan monitorinq qrupu əraziyə daxil olsun".

Niyaz Niftiyev sözlərinə belə davam edib: "Təəssüf ki, dekabrın ilk günlərindən başlayaraq monitorinq qrupu üç dəfə cəhd etsə də, əraziyə daxil ola bilməyib. Bu barədə KİV-də də kifayət qədər məlumat gedir. Sülhməramlılar söz vermişdilər ki, dekabrın 10-dan sonra bu məsələyə yenidən qayıdacaqlar. Amma deyilən tarixdən sonra da yenə də icazə vermədilər. Biz yox, yolu sülhməramlılar özləri bağlayıb, foto və videolardan da göründüyü kimi maşınları düzüb bağlayıblar. Biz hətta aksiyanın ilk günündə elan etdik ki, hərbi təyinatlı təcili tibbi yardımlara biz icazə verəcəyik ki, keçib gəlib getsinlər. Yəni, bununla bağlı heç bir problem yoxdur. Təəssüf ki erməni cəmiyyəti, erməni mediası, erməni siyasətçiləri həm daxili auditoriyaya, həm beynəlxalq təşkilatlara məsələni tamam başqa cür təqdim etməyə başlayıblar ki, guya biz yolu bağlamışıq. Biz təxminən iki gün orada aksiyada iştirak etdik və bizi digər vətəndaş cəmiyyəti institutlarının aktivistləri əvəz etdilər və hazırda da bildiyiniz kimi biz də izləyirik. Aksiya davam edir".

***Ayşən Vəli***

# "Ermənilər hələ də yaranmış vəziyyətlə barışmaq istəmirlər"

**"Ermənistan tərəfindən atəşkəsin pozulması artıq ənənəvi bir hal alıb. Təəssüflər olsun ki, ermənilər hələ də yaranmış vəziyyətlə barışmaq istəmirlər". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib. Onun sözlərinə görə, ümumiyyətlə bu təxribatlar gözlənilən bir addımdır: "Ona görə ki, sülh müqaviləsinin bağlanması məsələsi, delimitasiya və demorkasiya məsələsinin gündəmdə olması, buna qarşı olan qüvvələr və o qüvvələr də Ermənistan hakimiyyətinə təsir edirlər. Ona görə də hələ ki, söz üstünlüyü həmin o maneə olan qüvvələrdədir. Bu da atəşkəs pozulmasına gətirib çıxarır". Şair Ramaldanov sözlərinə belə davam edib: "Digər tərəfdən, orada Avropanın müşahidəçiləri var.**

Ümumiyyətlə, son zamanlar görürük ki, Azərbaycan-Ermənistan münasibətlərinin yenidən gərginləşdirilməsində və bölgədə münasibətlərin alovlanmasında müəyyən qüvvələrin marağı var. Bu həm Ermənistanın daxilindən, həm də xarici qüvvələr tərəfindən törədilir. Burada həm Avropa, həm İran, həm də Fransanın adı çəkilir. Həmçinin, erməni diasporası çox güclüdür və onlar erməni camaatını əsla düşünməyib. Onlar yanlız böyük ölkələrin siyasətini erməni diaspora adı ilə regionda yeritməklə məşğuldurlar. Vəziyyətin gərgin olmasında Rusiyanın da marağı olduğunu görə bilərik. Belə çıxır ki, regionda vəziyyətin sabit olmasında, sülhün baş tutmasında maraqlı olan dövlət Azərbaycan və onun yanında olan qardaş Türkiyədir. Yerdə qalanlar regionda prinsip cəhətdən dildə desələr də, atdıqları addımlar prosesin regionda gərgin saxlanılmasını istəyir. Ona görə də mən düşünürəm ki, biz hələ də atəşkəsin pozulma rejimində yaşayacağıq. Ordumuz bütün prosesləri nəzarətdə saxlayır və hər hansı təxribatın qarşısını almağa daim həm qadir, həm də hazırdır. Belə olan halda gələcəkdə təhlükəsizlik zonasının yaradılması vacib ola bilər. Əgər Ermənistan düzgün mövqe tutmasa, bu variant da istisna olmur".



***Ayşən Vəli***

# İndi biz nə edək?..



## FELYETON

-Həqiqətən, indi biz nə edək? Nə edəcəyik ki, papağımızı qoyaq qarşımıza fikirləşək.

-Nə fikirləşək?

-Nə fikirləşəcəyik ki? Ən vacib olanı.

-Niyə ən vacibi nədir ki?

-Ən vacibi uşaqlarımızın tərbiyəsidi.

-Mən də fikirləşirəm ki, nə deyəcəksən. Uşaqlarımızın tərbiyəsinə nə olub ki?

-Nə olub? Bilmirsən nə olub? O olub ki, indi elə uşaqlarımız var ki, məktəblərdə min bir hoqqadan çıxırlar. Dərsi pozur, müəllimi saymır, dil deyir, tərbiyəsizlik edirlər.

-Əstəğfürullah. Mənim uşağım əsla bunu etməz. Mənim nəzarətin daim onun üstündədir. Sən bu söhbəti qonşum Həsənin yanında aç.

-Həsən kişi, indi biz nə edək? Nəyi nə edək, a bala?

-Deyirəm bəlkə bu uşaqlarımıza bir az tərbiyə verək?

-Nə olub ki, uşaqlarımızın tərbiyəsinə? Heç onlardan tərbiyəli uşaq var? Get gör xalxın uşaqları nə oyundan çıxır. Odur ey, Hüseynin uşaqları. Deyir böyük oğlu o gün məktəbdə az qalırmış müəllimi döysün.

-Hüseyn əmi, indi biz nə edək?

-Nəyi nə edək, açıq danış görək!

-Bu uşaqlarımıza bir az tərbiyə verməklazımdır. Məktəbədək yolda çantaları ilə futbol oynayırlar. Məktəbdə səs-küy yaradırlar. Bir-birilərinə kitab-dəftər çırpırlar. Tənəffüzdə məktəbin dəhlizləri dağılır. Müəllimlər giley edir. Dərsi pozurlar. Uşaqların elm və tərbiyə öyrənməsinə mane olurlar.

-Mənə niyə deyirsən bu sözləri? Məgər mənim övladlarım sənin dediklərinin birini edərsə, basıb gözlərini oymaram? Mənim tərbiyəm tərbiyədir ey... Sən ünvanı səhv salmısan, get mənim qonşum Valehə de bu sözləri. O gün oğlu dərsdə ayağını qaldırıb qoyubmuş partanın üstünə, müəllim də endirə bilməyib.

-Valeh əmi, indi biz nə edək?

-Suala bax, nəyi nə edək?

-Deyirəm bəlkə uşaqlarımıza azacıq tərbiyə verək. Deyəsən çox əzizləmişik bunları, məktəbdə özlərini tamamilə itirirlər. Nə etdiklərini bilmirlər.

-Mənim uşaqlarım... Mənim uşaqlarım haqda deyirsən bunları? Ayıb olsun sənə. Mənim övladlarımın tərbiyəsindən bütün məktəb danışır. Buna bax, get, birinci öz uşaqlarını tərbiyə elə. Bir də qonşun var ey, Nəsib, onunla danış bu barədə. Qızı müəllimlə dil-dil ötür. Bir sözün qarşısına beşini deyir.

-Nəsib qardaş, nə var, nə yox. Görəsən indi biz nə edək?

-Nə edəcəyik ki... Nə lazımdır, onu edək. Neçə ildir qonşuyuq, hansı işdən kənar qalmışıq ki? Sadəcə belə başa düşmürəm ey, nə istəyirsən?

-Nəsib qardaş, istəyim odur ki, uşaqlarımıza bir az tərbiyə verək. Məktəblərdə lazımsız hərəkət edirlər. Müəllimlərin canını boğazlarına yığırlar. Çəkil o yana, demək olmur, valideynlər hücum çəkir məktəbə, müəllimləri internetə çıxarır, ağızlarına gələni danışırlar. Belə olmaz axı, başqa uşaqların da dərsini pozur, tərbiyələrinə təsir edirlər.

-Dayan, dayan, bunları mənə niyə deyirsən? Bəyəm mənim uşaqlarım haqqında nə isə eşitmisən? Kimin uşağının tərbiyəsi yoxdur, getsin əziyyət çəksin, tərbiyəsini versin. Mənim uşaqlarımı bütün el-aləm tanıyır, hamı onların başına and içir. Bura bax, sənin xətrini bir qonşu kimi istəyirəm. Belə sözlər danışma, xətrinə dəyərəm. Uşaqlar görməmisən ey, odur, Cəfərin uşaqları, tərbiyə nədir, bilmirlər. Sən Cəfərə ver bu sualı.

-Cəfər əmi, indi biz nə edək?

-Nə etməliyik ki?

-Uşaqlarımızla məşğul olaq. Onlara vaxt ayıraq, deyirəm. Bu uşaqlar tamam ağ edirlər, vallah. A kişi, sizin dövrünüzdə uşaq müəllimlə bu cür davranardı heç? Hörmət vardı, saygı vardı. Uşağın uşaq yeri vardı, müəllimin müəllim yeri vardı. İndi bəzi uşaqlar heç bilmirlər ki, nə hərəkət edir, nə danışırlar. Deyirəm, biz üzərimizə düşəni edək. Uşaqlarımıza tərbiyə verək. Onları başa salaq. Axı bizim mentalitetimiz, ənənələrimiz var. Bu uşaqların hərəkətləri bunların heç birinə sığmır axı...

-Gözləməzdim səndən. Çox incidim. Özgəsi olsaydın, salardım səni şillə-şapalağın altına. Deyərdim ki, sən kimsən ki, mənim uşaqlarım haqqında belə danışırsan, niyə tanımırsan onları? Peyğəmbər övladı kimi uşaqlardı. Dilləri yox, ağızları yox. Oxumaqdan heç başlarını qaldırırlar ki, biləsən də ki, şuluq nədir?

Həqiqətən qəlbimə qəydin. Əsla gözləməzdim səndən. Yenə deyirəm, başqası olsaydı, indi çoxdan ağzımı açıb, gözümü yummuşdum. Heç kim mənim övladlarımı dilinə gətirib, onların haqqında söz söyləyə bilməz. Mən buna icazə vermərəm. Onları mən tərbiyə etmişəm. Mənə də oxşayırlar. Heç bir artıq hərəkətləri ola bilməz. Bunu sənə müəllimlər deyirlərsə, yalan danışırlar. Günah onların özlərindədir.

Dayan, qoyacağam ayağımı o məktəbə. O müəllimlərin başına bir oyun açım ki, atalarının toyları yadlarına düşsün. Yəqin onlar yuxularını sayıqlayıblar sənə. Yox, mənim uşaqlarımı kimlərləsə qarışdırıblar. Nə yaxşı Cavadın, Mürsəlin, Pənahın uşaqlarını demirlər, mənimkiləri deyirlər? Lənət şeytana... Sən get onlara ver bu sualını, bildin, onlara...

***

Hə, anladım, həm də yaxşı anladım ki, məktəblərdə bəzi uşaqlar niyə at oynadırlar...

Lakin hələ də sualıma cavab tapa bilməmişəm: indi biz nə edək?

***Mətanət Məmmədova***

# Zəngəzur dəhlizi - Türk dünyasının yeni doğan ulduzu!

***"Anadolu" agentliyinin beynəlxalq əlaqələr üzrə eksperti Ayşegül Ketenci: "Zəngəzur dəhlizinin realizəsi Xəzər üzərindən yeni marşrutun yaradılmasına şərait yaradacaq ki, bu da Türkiyənin Mərkəzi Asiya ölkələri ilə yük daşınmalarının daha sürətli təmin olunmasına imkan verəcək"***

***Naxçıvan Muxtar Vilayətini Azərbaycanın şərq rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi layihəsi nəinki Cənubi Qafqazın inkişafına mühüm səmərələr verə, həm də Türk dünyasında ticari, logistik və siyasi əlaqələri möhkəmləndirə bilər. SİA xəbər verir ki, bu fikirləri "Anadolu" agentliyinin beynəlxalq əlaqələr üzrə eksperti Ayşegül Ketenci bölüşüb.***




O, qeyd edib ki, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi regionda güc balansını tamamilə dəyişdi, Cənubi Qafqazda uzunmüddətli sülh və tərəqqi yolunu açdı. Ermənistanla Azərbaycan arasında müharibənin başa çatmasına imkan verən üçtərəfli bəyanat həm də erməni silahlılarının Azərbaycanın işğal altındakı ərazilərindən çıxarılmasını və regionda nəqliyyat rabitəsinin bərpasını əks etdirirdi.

"Nəqliyyat rabitəsinin bərpa olunması, həmçinin yenilərinin yaradılması uzun və sadə olmayan prosesdir. Bununla yanaşı, Zəngəzur dəhlizinin realizəsi Xəzər üzərindən yeni marşrutun yaradılmasına şərait yaradacaq ki, bu da Türkiyənin Mərkəzi Asiya ölkələri ilə yük daşınmalarının daha sürətli təmin olunmasına imkan verəcək", deyə ekspert fikirlərini bölüşərkən bildirib.



"İran mövcud vəziyyətdə Zəngəzur dəhlizi ideyasına sərhədlərin bağlanması və geostrateji zərər qismində görür"




Ketenci qeyd edib ki, Zəngəzur dəhlizi təşəbbüsü İran, Ermənistan, Azərbaycan, Rusiya və Türkiyə də daxil olmaqla bir çox ölkələrin maraqlarına cavab verir. Onun sözlərinə görə, gər şeyə rəğmən, İran özünü regional güc səviyyəsində görərkən Azərbaycanın, o cümlədən, İslam Respublikasında yaşayan azərbaycanlıların artan təsirindən ehtiyat edir. Belə ki, Tehran Zəngəzur dəhlizinin İranın Ermənistanla əlaqələrinin "qarşısını alacağını", İslam Respublikasının Qara dənizə çıxışına mane olacağını" ehtimal edir: "Bu baxımdan, İran mövcud vəziyyətdə Zəngəzur dəhlizi ideyasına sərhədlərin bağlanması və geostrateji zərər qismində görür. Qara dənizə və Rusiya Federasiyasına gedən yolun qarşısının alınması Tehran tərəfindən onun Qafqaza təsiri faktorunun aşağı düşməsi və ölkə olaraq "Bir kəmər, bir yol" layihəsi çərçivəsindəki rolunun itirilməsi kimi qiymətləndirilir.

"Zəngəzur dəhlizinin təhlükəsizliyini Rusiya təmin edəcək və bu da Moskvanın xeyrinə olan daha bir imkandır"

Onun sözlərinə görə, müvafiq arqumentlərdən başqa, İranın Zəngəzur dəhlizi ilə bağlı ehtiyat etmə səbəblərinin əsasında Azərbaycanın və Türkiyənin regiondakı fəallığı da dayanır. Azərbaycan və Türkiyə İkinci Qarabağ müharibəsi zamanı regionda öz güclərini nümayiş etdirdilər. Yuxarıda qeyd edilən faktorlarla yanaşı, İranı Türkiyə ilə Azərbaycanın güclənməsi sayəsində Tehrana zərər vurması faktoru da narahat edir.




Beynəlxalq əlaqələr üzrə ekspert onu da qeyd edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın 9-cü bəndinə görə Zəngəzur dəhlizinin təhlükəsizliyini Rusiya təmin edəcək və bu da Moskvanın xeyrinə olan daha bir imkandır.

"Yuxarıda qeyd edilənlərdən belə nəticə çıxarmaq olar ki, Zəngəzur dəhlizi region ölkələrinin gündəliyində qalmaqda davam edir. Bu nəqliyyat arteriyası Türk dünyasının yeni doğan ulduzu ola bilər. Lakin bu potensialın əldə edilməsi üçün çoxtərəfli əməkdaşlıqla yanaşı, uzunmüddətli fundamentin təmin edilməsini də inkişaf etdirmək lazımdır", deyə Ayşegül Ketenci öz fikirlərində vurğulayıb.

***Rövşən RƏSULOV***

ŞƏRH-AKTUAL



Təhmasib Novruzov

# Duzu iylənən dünya

***Biz həqiqətən yüksək intellektli millətik. Heç o yana, bu yana vurnuxmaq lazım deyil, intellektli olmağımızı təsdiqləmək üçün təkcə atalarımızın bizlərə miras qoyub getdiyi hikmətli kəlamları xatırlamaq kifayətdir. Hansı mövzuda söz açıb danışmaq istəsən, həmin mövzuya uyğun hikmətli kəlamlar, yəni atalar sözlərimiz yada düşür. Elə indi də istədim dünyanı çulğayan bir mövzudan söhbət açım, dərhal atalarımızın məşhur kəlamı yadıma düşdü: "Ət iylənsə duzlamalı, duz iylənsə neyləməli?".***

Çox müdrikcəsinə deyilmiş kəlamdır, deyilmi? Son illər maddi imkanlarımızın yaxşılaşmasındandır ki, hamımız daha çox ət xörəkləri yeməli oluruq. Həm də əvvəlki vaxtlar kimi, daha 200-300 qram ət alıb, həmin gün də bişirib yemirik. Beş, bəzən on kiliqram ət alıb qoyuruq soyuducuya və başlayırıq xımır-xımır yeməyə. İşdi, soyuducumuzda problem yaranarsa, ətimiz iylənərsə, duzlayıb bir-iki saat saxlayırıq və sonra yenə bişirib həzmi-rabedən keçiririk. Vay o günə ki, duzumuz iylənsin, o zaman duzu neyləməliyik, bilmirəm.Siz allah bağışlayın e... Məqsədim kulinariya dərsi keçmək deyil. Sadəcə, istədim ətlə duz haqqında babalarımızın dediyinin fəlsəfi mahiyyətindən əvvəl, gerçək mənası haqqında təsəvvür yaradım. İndi gələk mövzumuza. Bu Avropa deyilən qos-qoca qitə yüz illərdir ki, dünyanın ən inkişaf etmiş ölkələrinin cəmləşdiyi qitə kimi tanınır. Düzdü, çox şeyləri bizdən, yəni şərqdən oğurlasalar da, ən azı oğurladıqlarını daha mükəmməl bəzəyib-düzəyib dünya üçün etalona çeviriblər. Məsələn, dünyada ilk konstitusiyalı dövlət idarətməmin əsasını VII əsrdə islam peyğəmbəri Həzrət Məhəmməd (s.ə.) qoysa da, belə dövlətçilik ənənəsinin əsasını avropalıların qoyduğunu deyirlər. İlk sosial cəmiyyət haqqında fikirlər XII əsrdə yaşayıb-yaratmış şərqin ölməz dühası Nizami Gəncəviyə məxsus olsa da, XIX əsrdə avropada yarandığı iddia edilir.

Xülasə, qəmləri kəm, biz ideya veririk, avropa da onu bəzəyib-düzəyib dünyaya nümunə kimi təqdim edir. Düz 300-400 ildir ki, bu, belədir və son əsrdə isə əndazədən çıxıb. Bütün dünyaya deyirlər ki, hamı gərək ölkəni avropalılar kimi idarə eləsin, gərək hamı demokratik idarətmə yaratsın, gərək hamı rüşvətdən-flandan imtina eləsin və s. Hələ bəzi-bəzi biabırçılıqları demirəm, yəni eyni cinsdən olanların bir-biri ilə evlənməsi, cinsi azlıqların hüquqlarının tanınması kimi... Avropanın çoxlu-çoxlu belə əndrabadi işləri olsa da, etiraf etməliyik ki, bir sıra məsələlərdə həqiqətən etalondur və dünyanın bütün ölkələri belə məsələlərdə avropaya oxşamaq istəyir. Hansı ölkədə demokratiya, insan haqları, söz, mətbuat azadlığı sahəsində bir axsama olursa, o saat üzün tutur avropaya. Yəni ət iylənəndə duz səpdiyimiz kimi, cəmiyyətdə bir "iylənmə" olursa, avropanı "duz" kimi istifadə edir və problemi həll etməyə çalışırıq. Di gəl son vaxtlar avropadan elə iyli-qoxulu xəbərlər gəlir ki, artıq duz rolu oynaya bilməyəcəyini, yeni duz olmasına rəğmən özünün çox pis qoxu verdiyini, el dilincə desək iyləndiyini görüb, burnumuzu tutub qaçmağa məcbur oluruq. BMT Təhlükəsizlik Şurasının üzvü olub da, dünyanın guya təhlükəsizliyini qorumalı olan firənglərin sərgilədikləri rüsvayçı mövqe hamını mütəəssir etdiyi, Korsika xalqının azadlıq istəklərinə ən vəhşi üsullarla qarşılıq verdiyi halda, Azərbaycanda beş-altı min dığaya azadlıq tələb etdiyi bir zamanda, Fransanın da təmsil olunduğu Avropa İttifaqında biabırçı rüşvət, korrupsiya qalmaqalı xəbəri bütün dünyanı çulğadı.

Ən dözülməzi də odur ki, firəng deputatlar kimi, xəritədə yerini bilmədikləri ölkələr haqqında gündəmdə olan məsələlərə, məhz rüşvət sayəsində verilən göstərişlərə uyğun "hə", "yox" deyirlər. İndi gəl avropa deyilən bu qosqoca qitənin ədalətsizliyinə döz. Amma dözmək məcburiyyətində olmaya da bilərik. Necəsini indi deyim, siz də bilin. İylənmiş duzu aparıb suda yuyub, qurudub, çox hissəsi əriyib yox olsa da, qalan hissəsinin iy-qoxusunu təmizləmək mümkün olduğu kimi, avropanın da yuyulub, kir-pasının tökülməsinə ehtiyac var. Necə? Bax onu BMT-dən, ABŞ-dən və Çindən soruşmaq gərək...

# Britaniya kəşfiyyatının rəhbəri İrəvanda nə axtarır?



**Ekspertlər açıqladı**

***Dekabrın 15-də Böyük Britaniyanın Mİ-6 kəşfiyyatının rəisi Riçard Mur İrəvana səfər edib. "Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdə Cənubi Qafqazda baş verən proseslər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib", - Ermənistan hökumətinin mətbuat xidməti bildirib.***

Qeyd edək ki, bu, Britaniya kəşfiyyatının rəhbərinin regiona ilk səfəridir. Bu, görünməmiş faktdır və yəqin ki, Londonun Cənubi Qafqazdakı proseslərə verdiyi önəmdən xəbər verir. Bundan əlavə, belə səfərlər zamanı çox məxfi məsələlər müzakirə olunur və məxfi təkliflər verilir. Xatırladaq ki, bu ilin iyulunda ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Robert Börns də eyni gözlənilməz səfərlə İrəvana səfər etmişdi.

Maraqlıdır, Britaniya tərəfi İrəvanla hansı məsələləri müzakirə edir? London, əlbəttə ki, regionumuzda sabitlikdə maraqlıdır, yalnız ona görə ki, BP Azərbaycanda enerji ehtiyatlarını çıxarır və bütün Qafqazdan keçərək Qərbə çatdırır. Amerika da tez-tez bizim regionda Avropanın maraqlarının qarantı kimi çıxış edir. Digər tərəfdən, bu fəaliyyət İranda baş verənlərlə hansısa şəkildə bağlıdır? Bəs niyə İrəvanla danışıqlar gedir? Ona görəmi ki, Ermənistan hələ də KTMT-nin üzvüdür və Tehranla sıx əlaqələri var?

Məsələ ilə bağlı xarici ekspertlər Caliber.az-a fikirlərini bildiriblər. Şərhləri oxucularımıza təqdim edirik.

"Avropa İttifaqından çıxdıqdan sonra Böyük Britaniya qətiyyətlə yeni qlobal missiyasını inkişaf etdirməyə və həyata keçirməyə başladı. Buraya həm Ukraynadakı hərbi münaqişədə kollektiv Qərb dövlətlərinin aparıcı rolu, həm də Yaxın və Uzaq Şərq regionlarında hərbi-diplomatik mövcudluğun intensivləşməsi daxildir", - rusiyalı politoloq, Sankt-Peterburq Dövlət Universitetinin professoru Stanislav Tkaçenko deyir.

Britaniya kəşfiyyatı MI6-nın hazırkı rəhbəri Riçard Mur 5 il (2014-2018) Türkiyədə səfir olub və Britaniya kəşfiyyatının başında işə başladıqdan sonra iki dövlət arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsinə fəal yardım edib.

"2022-ci ilin yazında tezliklə vəzifəsini tərk edən Böyük Britaniyanın baş naziri Boris Conson Kiyevə səfəri zamanı Britaniya, Polşa və 3 ölkənin daxil olacağı "Avropa İttifaqının xarabalıqları üzərində" yeni inteqrasiya birliyinin yaradılmasını təklif etdi. Baltikyanı ölkələr, daha sonra Türkiyə. Türkiyənin iştirakı ilə bağlı bu təşəbbüsün reallıqdan təcrid olunması əksər ekspertlər tərəfindən dərhal göründü. Lakin Rusiyanın qərb sərhədlərində yeni "sanitar kordonu" yaratmaq üçün London və Moskvaya düşmən olan Şərqi Avropa dövlətləri arasında hərbi ittifaqın yaradılması ideyası Britaniyanın NATO-nun Ukraynanı öz sıralarına qəbul etmək istəməməsinə cavab idi. Ona görə də Rusiya Ukraynadakı hərbi münaqişə zamanı Londonun irəli sürdüyü təşəbbüsləri, həmçinin Britaniya hərbçilərinin və kəşfiyyatçılarının orada birbaşa iştirakının miqyasını diqqətlə izləyir", - politoloq qeyd edib.

Rusiya ilə Ukrayna arasında 10 aya yaxındır davam edən hərbi münaqişə Rusiya Federasiyasının planetin bir sıra regionlarında, o cümlədən Cənubi Qafqazda diplomatik və hərbi mövcudluq imkanlarını xeyli azaldıb- professor belə düşünür.

"Moskvanın bu regionda təsirinin azalacağını gözləyən bir sıra iri dövlətlər artan güc boşluğunu doldurmaq üçün səy göstərir. Türkiyə və İran ən fəaldır, lakin qeyri-regional oyunçular (Fransa, Böyük Britaniya, ABŞ) da regional proseslərdə iştiraklarını açıq şəkildə göstərirlər. Üstəlik, "kollektiv Qərb" ölkələri İrəvanın həyata keçirdiyi siyasi çağırışları və diplomatik demarşları ilk növbədə nəzərə almağa hazır olduqlarını açıq şəkildə nümayiş etdirirlər. Bu yaxınlarda ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Börns Ermənistana səfər edib, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan isə dekabrın 12-də Londona səfəri zamanı öz kabinetində Riçard Murla görüşüb. İndi isə Britaniya xarici kəşfiyyatının rəhbəri İrəvana gəlib. Təmasların bu intensivliyi özlüyündə qeyri-adi hadisələrə yaxınlaşmaq siqnalı kimi xidmət edir. Hansıların olduğunu anlaya bilərikmi?



Ola bilsin ki, bizə bir ipucu 2020-ci ilin oktyabrında Vladimir Zelenskinin Mİ-6-nın baş qərargahına səfəri olacaq. Ukrayna prezidenti Zelenski ilə görüşdə Mİ-6-ya rəhbərlik edən eyni Riçard Murun nə barədə danışdığını dəqiq bilməyəcəyik. Amma həmin səfərdən az sonra Ukraynanın daxili və xarici siyasətində baş verən kəskin dəyişiklikləri görməməyə bilmərik. Onlar Zelenski mətbuatına qarşı müxalifətə açıq təzyiqin başlanğıcında və Ukrayna Prezident Aparatının siyasi opponentlərinin təqibində, eləcə də Kiyevin Minsk razılaşmasının şərtlərinə əməl etməkdən imtina etməsi ilə ifadə olunub.

Artıq 2020-ci ilin sonunda ölkənin şərqində Ukrayna ordusunun sayı kəskin artmağa başlayır, Minsk razılaşması ilə müəyyən edilmiş "təmas xətti" boyunca ölən və yaralananların sayı artır. Bəzi rusiyalı ekspertlər əmindirlər ki, Zelenski Minsk razılaşmalarını pozmaq və münaqişəni hərbi kanala qaytarmaq əmrini Londonda 2020-ci ilin payızında, hazırkı əmək bölgüsü formalaşan zaman alıb: Vaşinqton əsas qərarları qəbul edir və münaqişəni maliyyələşdirir. London "döyüş meydanında" əməliyyatlara rəhbərlik edir. Üstəlik, bu konsepsiyaya təkcə Ukrayna deyil, həm də qonşu dövlətlər daxildir: Belarus, Moldova, eləcə də Cənubi Qafqazın üç dövləti",- Tkaçenko hesab edir.

Mİ6 rəhbərinin İrəvana səfərinin səbəblərini və onun mümkün nəticələrini qiymətləndirərkən nəzərə alınmalı olan digər amil 2022-ci ildə Dauninq strit 10 ünvanında üçüncü dəfə hakimiyyət dəyişikliyi və yeni nəsil maliyyəçi və siyasətçi, xarici siyasət və müharibə məsələlərindən uzaq olan Rişi Sunakın baş nazir postuna gəlişidir. Onun Rusiya-Ukrayna münaqişəsinə dair kursunda iki sələfinin radikallığı yoxdur, lakin indiyə qədər Rusiya ilə qarşıdurma strategiyasına yenidən baxıldığı və ya düzəliş edildiyinə dair heç bir əlamət yoxdur. Ölkənin təhlükəsizliyinə cavabdeh olan yüksək səviyyəli rəhbərlərin belə dövrlərdə səfərləri keçmiş siyasəti təsdiq və ya korrektə etməyə xidmət edir. Ona görə də Britaniyanın xarici siyasətinin hansı istiqamətdə hərəkət edəcəyini tezliklə öyrənəcəyik, - politoloq deyir.

"Mən şübhə etmirəm ki, R.Mur şərtlər irəli sürmək və onu hədələmək üçün İrəvana uçub, çünki bu məqsədlər üçün yüksək rütbəli Britaniya diplomatı və ya hətta İrəvanda akkreditə olunmuş Böyük Britaniya səfiri kifayət qədər uyğun olardı. R.Murla N.Paşinyan arasında qızğın söhbətin mövzusu ilə bağlı 3 fərziyyə bildirəcəyəm.

Birincisi, bu, Azərbaycanla sülh sazişinin və Laçın dəhlizi ətrafında münaqişənin qarşısının alınmasıdır. Britaniya Azərbaycanla Ermənistan arasında silahlı münaqişənin yeni mərhələsinin başlanmasında maraqlı deyil, ona görə də Britaniya kəşfiyyatçısı İrəvandan Laçın rayonunda mövcud münaqişədə payı artırmaqdan imtina etməsi və bu məsələdə daha konstruktiv mövqe tutması tələbini irəli sürə bilər. Qarabağın sülh yolu ilə Azərbaycanın nəzarətinə verilməsi məsələsi. Çox güman ki, London da Bakıya qarşıdurmanın sülh yolu ilə həllinə keçmək tələbi ilə müraciət edir, lakin bizim bundan nə vaxt xəbərimiz olacağı dəqiq deyil.

İkincisi, Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi və bu məsələdən İrana təzyiqləri artırmaq üçün istifadə edilməsi. 2020-ci ilin payızında açıq fazaya qədəm qoyan Bakı ilə Ankaranın hazırkı yaxınlaşması İran üçün qıcıq yaradıb. Bu gün Tehran Zəngəzur dəhlizi layihəsini öz təhlükəsizliyinə və iqtisadiyyatına təhdid hesab edir, çünki onun həyata keçiriləcəyi təqdirdə Ermənistanla İran arasında quru əlaqəsinin pozulacağına və ya tamamilə kəsiləcəyinə əmindir. Tehranın bu qorxuları Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin müzakirəsi zamanı aradan qaldırıla bilər. Amma hesab edirəm ki, R.Mur nəqliyyat sektorunda İrana hər hansı təminat verilməsinin əleyhinədir və o, İrəvandakı danışıqlarda öz mövqeyini açıq şəkildə ortaya qoya bilərdi.

Nəhayət, üçüncüsü, bu gün London üçün ən vacib vəzifə Rusiya ilə Ermənistan arasında hərbi sahədə əməkdaşlığı dayandırmaqdır. Çətin ki, Rusiyanın Ermənistandakı hərbi bazalarını bir gecədə bağlasın və bu dövlətin KTMT-dən çıxmasına nail olsun. Amma bu istiqamətdə iş gedir. Zelenskinin nümunəsi və Ukrayna siyasətinin Rusiya istiqamətində danışıqlardan münaqişəyə doğru kəskin şəkildə dəyişməsi göstərir ki, göstərilən səylər tezliklə olmasa da, öz bəhrəsini verə bilər. Lakin Britaniya İmperiyasının mövcud olduğu əsrlər boyu strateji planlaşdırma bacarıqlarını inkişaf etdirmiş Britaniya kəşfiyyatı tələsməyə öyrəşməyib", Tkaçenko bildirib.

Kiyev Yaxın Şərq Araşdırmaları Mərkəzinin icraçı direktoru İqor Semivolos etiraf edir ki, ABŞ və Böyük Britaniya kəşfiyyat orqanlarının regiona artan marağı həqiqətən də Ermənistan hakimiyyətinin kompleks nümayiş etdirdiyi Qarabağ ətrafında gedən proseslərlə bağlıdır.

"Bir tərəfdən Ermənistanın baş naziri Nikol Paşinyanın KTMT ölkələrinin görüşündə demarşı və İrəvanla Moskva arasında münasibətlərin soyuması, digər tərəfdən Tehranla aktiv qarşılıqlı fəaliyyət, ermənilərin silahla təmin olunmasına qədər. Və İranla Azərbaycan arasında gərginləşən münasibətlər fonunda fəal siyasi məsləhətləşmələr.

Şübhəsiz ki, region mühüm əhəmiyyət kəsb edir və orada baş verən proseslərə diqqətin artması özlüyündə göz qabağındadır.

Hazırda şəraiti nəzərə alsaq, İrəvanla söhbət kifayət qədər məntiqli görünür- Ermənistan KTMT sistemində zəif həlqədir və kritik vəziyyətdə olduğu üçün dayağa ehtiyacı var. Bu cür səfərlərin effektivliyini və onların İrəvanın siyasi trayektoriyasına təsirini qiymətləndirmək çətindir, lakin belə səfərlər faktı özlüyündə Rusiyanın hərbi məğlubiyyəti üçün Cənubi Qafqazda böyük oyunun yenidən başlaması hissi yaradır"- Semivolos deyir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Təlimi olmayan təlimçilər

*Bildiyimiz kimi, son zamanlar şəhərdə "Təlim avtomobil"i adı ilə avtomobil idarə edənlər çoxdur. Bəs, sürücülük kursuna üz tutarkən seçimimizi necə düzgün etməliyik? Ümumiyyətlə, sürücülük vəsiqəsi olmayan təlimçilər varmı? Əgər varsa, onlara necə nəzarət olunur? SİA mövzu ilə bağlı araşdırma aparıb. Sürücülük vəsiqəsi kursu qiymətləri nə qədərdir? Sürücülük vəsiqəsi kursunun müddəti nə qədər çəkir?*

**Qiymətlər:**

**"Təlim xanımlar Arzu" təlim kursu**: Dərslər şəhər içi bütün ərazilərdə keçirilir. Təlimçilər xanımlardan ibarətdir tam sıfırdan öyrədilir. Dərslər 10 ildən artıq stajı olan professional təlimçilər tərəfindən keçirilir. Təlim zamanı heç bir sənəd tələb olunmur. 1dərs 1saatdır.

1dərs- 22 AZN
5dərs- 100 AZN
10dərs-180 AZN".



**"Avto təlim xanımlar və bəylər" təlim kursu:** "1 dərs- 22 AZN, 5 dərs- 100 AZN".

"149 Avto" Təlim Kursları: "Təlimlərin başlanğıc və son nöqtəsi Gənclik metro stansiyasıdır. İlk dərsdə təlimçi sizə müəyyən boş ərazilərdə idarəetməni öyrədir. Daha sonrakı dərslərdə isə şəhər içi yollarda təlimlər keçirilir".

**Qəza əleyhinə kursların məşqçisi Aqil Rəhimov:** "Günümüzdə həddindən artıq çox təlim maşınları var. Bəlkə də 300-dən çox təlim maşınları peyda olub. Təlimi işini professional müəllimlər etməlidir.

Sovet İttifaqı zamanında bu barədə çox ciddi bir nəzarət var idi və xüsusi kursları bitirirdik. Bundan sonra da xüsusi müəllimlik sənədi alırdıq. Müəllim kimi imtahan verib, sertifikat alıb ondan sonra dərs keçirdik. İndi isə qaydalarda yazılıb ki, 5 il təcrübəsi olan hər bir kəs əgər məktəblə müqaviləsi varsa və avtomobilini yol polisində təlim maşını kimi qeydiyyatdan keçirirsə, dərs deyə bilər. Bununla bağlı çoxlu axın başlayıb. Bura üz tutanlar işsizlikdən, maaş azlığından və maddi problemlərə görə gəlir. Əslində gərək təlim müəllimi işini sevsin, professional olsun, özünün metodikası olsun, tələbəyə yüzlərlə sirr öyrətsin. Amma bunun üçün müəllimin özü o sirləri bilməlidir. Təəssüf ki, bu sahəyə üz tutan təsadüfi adamlar çoxdur.

Tələbə müəllim seçimi edərkən tanış və dostlarının məsləhətlərinə qulaq asmalıdır. Yəni, yaxşı bir kursdan kimsə yararlanıbsa, seçimi ora olmalıdır.

Bundan başqa, ilk dərsə mütləq təcrübəli bir adamla yollanmaq lazımdır. Həmin şəxs oturub dərsin keyfiyyətinə baxsa çox yaxşı olar. Təcrübəsi çox olan sürücü müəllimin zəif, yaxud güclü olduğunu həmin an anlayır. Əgər müəllim tələbənin qohumunun dərsdə iştirak etməsinə qəti narazılıq edirsə, artıq həyəcan təbili çalınmalıdır. Buradan o qənaətə gəlmək olar ki, deməli müəllim özünə güvənmir.




Sürücülük kurslarının qiymətinə gəldikdə isə bu müxtəlifdir. 1 dərs 15 AZN-dan başlayır və 35-45 manata qədər davam edir.

Bundan başqa, adi kurslardan başqa, qəza əleyhinə kurslar da var. Belə kurslarda nəinki avtomobil idarə etmək, hətta qəzadan qaçmaq da öyrədilir. İş orasındadır ki, Bakıda nəqliyyat şəraiti ağırdır və həddindən artıq savadsız sürücülər var. Belə ki, yalnız qaydalara əsaslanmaqla avtomobil idarə etmək kifayət etmir. Ona görə də ən yaxşı seçim qəza əleyhinə kurslardır.

Son olaraq qeyd edim ki, bəzi insanlar təlim işinə ciddi münasibət bəsləmir. Belə ki, onlar təlimə 5-10 dərsdən artıq gəlmirlər. Halbuki dünya ölkələrinin təcrübəsində minimal dərslərin müddəti 40, İngiltərədə 70 və Amerikada 50 saatdır. Bundan başqa tələbənin yanında 1 il müddətində sürücülük vəsiqəsi olan adam onu müşayiət etməlidir. Belə ciddi tələblər var. Bizdə isə insanlar həyatlarını riskə ataraq 5-10 dərsdən sonra kursa gəlmək istəmirlər".

**Nəqliyyat eksperti Elməddin Muradlı:** "Təlimçilərin sürücülük vəsiqəsi yoxdur deyə bilmərik. İndi ola bilər tək-tük hallarda bu baş verə bilər. Bu xüsusən xanım təlimçilər arasında mümkündür. Amma hələ ki, praktikada belə hallara rast gəlməmişik. Ola bilər gizli şəkildə öyrənirlər, özlərini təlimçi kimi təqdim edirlər. Amma hər bir halda insanlar diqqətli olmalıdırlar. Təlimçilərin sertifikatlaşdırılması məsələsi təcili formada öz əksini tapmalıdır. Təlimçilər özləri peşəkar olmalıdırlar. Təlim keçmək istəyən vətəndaşlar bunu tələb etməlidirlər. Hər yerindən duran təlimçi ola bilməz.



Çox təəssüflər olsun ki, xüsusən bu xanım təlimçilər arasında dəb halını alıb. Özlərini təlimçi elan edirlər. Şəhərdə onların maşın sürmələrinə baxanda adam dəhşətə gəlir ki, bunların özlərinə təlimçi, və yaxud da təlim lazımdır. Belə olan halda təbii ki aidiyyəti qurumların üzərinə iş düşür. Onlar məsələni hansısa formada tənzimləməlidirlər, nəzarət olmalıdır və nəzarət üçün də sözsüz ki, Yol hərəkəti təhlükəsizliyinə dair dövlət proqramında nəzərdə tutulan məsələ öz həllini tapmalı, yəni, təlimçilər sertifikatlaşdırılmalıdır".

**A.Vəli**

ARAŞDIRMA

# Mask bu il 122,6 milyard dollar itirib



***"Tesla", "SpaceX" və "Twitter"in rəhbəri İlon Mask 2022-ci ildə təxminən 122,6 milyard dollar itirib ki, bu da onun 2021-ci ildə qazandığı məbləğdən çoxdur. SİA xəbər verir ki, bu barədə "Bloomberg" yazıb.***

Məlumata görə, Maskın sərvəti təxminən 147,7 milyard dollar təşkil edib ki, bu da son iki ildə ən aşağı göstəricidir. Onun kapitalı əsasən "Tesla"nın səhmləri və opsionlarından ibarətdir. Mask dünən səhmlərinin qiymətinin azalması səbəbindən 7,7 milyard dollar itirib.

"Bloomberg"ə görə, o, milyarderlər siyahısında ikinci sıradadır. Reytinqə LVMH şirkətlər qrupunun (Louis Vuitton Moet Hennessy) prezidenti Bernar Arno başçılıq edir. Onun sərvəti təxminən 161 milyard dollardır.

# Yeni il hədiyyələri doğrudanmı təhlükəlidir?

***"Nəzərə alsaq ki, artıq Yeni İl gəlir və hədiyyələr paketlənərək satışı artır. Bu hədiyyələrin əksəriyyətinin içərisinə vaxtı keçmiş şirniyyatlar qoyulur. Bu təbii ki, yolverilməz haldır". Bu, sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.***



Onun sözlərinə görə, valideynlərə səslənirik ki, özləri evdə ən sağlam variantda hədiyyə hazırlasınlar: "Bura müəyyən şəkərparələr, kurabiyələr və şirniyyatlar daxildir. Bir qutuya bunları yığıb hədiyyə formasında hazırlamaq daha məqsədəuyğundur".

Ağa Salamov sözlərinə belə davam edib: "Marketlərdən aldığımız hədiyyələrdə çox vaxt qutunu açan kimi vaxtı keçmiş məhsullarla üzləşirik. Bu da uşaqlarda zəhərlənmə hallarına qədər gətirib çıxarır. Çünki saxlanma şəraiti düzgün olmayan şirniyyatlar kif salır, dadında və rəngində dəyişikliklər əmələ gəlir".

**Ayşən**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600